© *“Metafizika” Journal*
*Vol 7, issue 1, serial 25, 2024. pp.10-40*
*AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UOT:** 94.(479.24).
**KBT:** 63.3(5 e)6
**DOI:** 10.33864/2617-751X.2024.v7.i1.10-40
**MJ №** 197

# Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və Qarabağ məsələsi regional siyasi proseslərdə (1918-ci il iyun-oktyabr)

**Vasif Qafarov***

**Abstrakt.** Məqalədə Cənubi Qafqazda müstəqil dövlətlərin yaranmasından sonra Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiaları və bu məsələ ilə bağlı tərəflər arasında gedən diplomatik mübarizə araşdırılmışdır. Ermənistanın ərazi iddiaları ilə bağlı İstanbul konfransındakı Azərbaycan və erməni nümayəndə heyətləri, eyni zamanda hər iki ölkənin Tiflisdəki diplomatik təmsilçilər arasında gedən danışıqların təfərrüatı Azərbaycan və Türkiyə arxivlərinin sənədləri və 1918-ci il İstanbul mətbuatının materialları əsasında işıqlandırılmışdır. Ermənistanın ərazi iddialarının miqyası və ermənilərin istinad etdiyi arqumentlər müəyyən edilmişdir. Həmçinin, Azərbaycan tərəfinin bu iddialara qarşı ortaya qoyduğu əks arqumentlər şərh edilmişdir. Problemlə bağlı təqdim edilən arxiv sənədləri və tərəflərin nota və bəyanatları ilk dəfə olaraq elmi dövriyyəyə gətirilmişdir.

Belə bir nəticəyə gəlinmişdir ki, 1918-ci il mayın 30-da müstəqilliyi elan edilən Ermənistanın ümumi ərazisi cəmi 9000 km2 olub. Bu ərazi də bir sıra şərtlər daxilində Ermənistana verilib. Müstəqilliyin elanından sonra Ermənistan ərazi sərhədinə malik olduğu bütün dövlətlərə qarşı ərazi iddiaları irəli sürüb. Ermənistanın ərazi iddialarının ümumi həcmi 43500 km2-dən ibarət olub ki, bunun 17600 km2-i Türkiyəyə, 16500 km2-i Azərbaycana, 9400 km2-i isə Gürcüstana qarşı yönəlib. Cənubi Qafqaz respublikaları arasında mübahisəli ərazi-sərhəd məsələlərinin həlli üçün Ermənistan irqi-milli prinsiplərə, Azərbaycan etnik-dini və coğrafi prinsiplərə, Gürcüstan isə tarixi prinsipə istinad edirdi. Ermənistanın mövqeyi və davranışları Cənubi Qafqaz respublikaları arasında mübahisəli ərazi-sərhəd məsələlərini həll etməyə imkan vermədi.

**Açar sözlər:** ərazi iddiaları, ərazi-sərhəd problemləri, Qarabağ məsələsi, Batum konfransı, İstanbul konfransı, Azərbaycan ərazisi, Ermənistan ərazisi

* Tarix elmləri doktoru, dosent
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun baş elmi işçisi; Bakı, Azərbaycan
E-mail: vasifgafarov@gmail.com
https://orcid.org/0000-0002-9232-6328

**Məqaləyə istinad:** Qafarov, V. [2024] Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və Qarabağ məsələsi regional siyasi proseslərdə (1918-ci il iyun-oktyabr). *“Metafizika” jurnalı, 7(1),* səh.10-40.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i1.10-40

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 30.10.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 04.12.2023*
*Çapa qəbul edilmişdir: 29.01.2024*

## 1.Giriş

Rusiya imperiyasının süqutundan sonra Cənubi Qafqazda cərəyan edən hərbi-siyasi proseslər 1918-ci il fevralın 23-də Tiflisdə Cənubi Qafqaz Seyminin yaradılması ilə nəticələndi. Seym bir tərəfdən özünü “Rusiya Respublikası”nın bir hissəsi hesab edir, digər tərəfdən də Rusiyadakı bolşevik hakimiyyətini qəbul etmirdi. Buna görə də Osmanlı dövləti Brest-Litovsk sülhünün Cənubi Qafqazla bağlı müddəalarını Tiflis hökumətinə də qəbul etdirmək üçün onunla ayrıca danışıqlar aparmalı oldu. Bu məqsədlə tərəflər arasında keçirilən Trabzon konfransı (14 mart-14 aprel 1918) uğursuzluqla nəticələndi. Osmanlı dövləti Brest-Litovsk sülhü ilə əldə etdiyi Qars, Ərdəhan və Batum vilayətlərinə silah gücünə yiyələnməli oldu. Hərbi əməliyyatlarda məğlub olan Seym Osmanlı dövlətinin tələblərini qəbul edib, 1918-ci il aprelin 22-də Cənubi Qafqazın müstəqilliyini elan etdi və Brest-Litovsk sülhünün şərtlərini qəbul etdiyini açıqladı. Tərəflər arasında keçirilən Batum konfransında (11 may-4 iyun 1918) sərtləşən türk tələbləri qarşısında vahid mövqeyə gələ bilməyən Cənubi Qafqaz Respublikası 1918-ci il mayın 26-da süqut etdi. Elə həmin gün Gürcüstanın, mayın 28-də Azərbaycanın, mayın 30-da da Ermənistanın müstəqilliyi elan edildi.

Batum konfransının (11 may- 4 iyun 1918) gedişində yeni yaranan Gürcüstan, Azərbaycan və Ermənistan respublikaları arasında ciddi qarşılıqlı ərazi-sərhəd problemlərinin olduğu üzə çıxdı. Bu problemlərin gələcəkdə böyük sarsıntılara gətirib çıxaracağını yəqin edən konfransdakı Osmanlı hərbi nümayəndəsi Vehib paşa 1918-ci il iyunun 1-də Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşəyə bildirirdi ki, Osmanlı dövləti ilə Qafqaz respublikaları arasındakı sərhədlərin təyin edilməsindən əlavə bu respublikaların öz aralarında olan sərhədlərin də qəti olaraq təyin edilməsi fövqəladə əhəmiyyət kəsb edir və bunu gerçəkləşdirmək lazımdır [13, v.18]. Lakin Qafqaz respublikaları arasında ərazi-sərhəd məsələləri ilə bağlı qarşılıqlı iddiaların miqyasını nəzərə alan Xəlil bəy konfransın işini tez bir zamanda başa çatdırmaq üçün bu məsələnin Batumda həllini uyğun bilmədi. Xəlil bəylə erməni və Azərbaycan nümayəndələri arasında aparılan müzakirələrdə bircə o qərarlaşdırıldı ki, yeni yaradılan Ermənistan Respublikasının şərq, yəni Azərbaycanla olan sərhədini Göyçə gölü təşkil edir [12, v. 146, 150, 151; 11, v. 94, 96, 98, 100]. Bu sərhədin detallarının müəyyən edilməsi də sonraya saxlanıldı. Osmanlı dövləti ilə Cənubi Qafqaz respublikaları arasında ümumi sərhəd xətti təyin edildikdən sonra 4 iyun 1918-ci il tarixində tərəflər arasında müqavilələr imzalandı və bununla da konfrans öz işini başa vurdu.

Qafqaz respublikaları arasında sərhədlərin təyin edilməsi məsələsi bu respublikaların öz ixtiyarına buraxıldı və Vehib paşanın təklifi [13, v. 18] ilə Osmanlı dövləti ilə Azərbaycan, Gürcüstan və Ermənistan arasında

imzalanan müqavilələrə belə bir maddə salındı ki, bu respublikalar özləri öz aralarında sərhədlərini müəyyən edəcəklər, bununla bağlı tərəflər arasında imzalanacaq protokol barədə Osmanlı hökumətinə məlumat verəcəklər və bu protokollar Batum müqavilələrinin bir hissəsini təşkil edəcəkdir. Bu məsələ Osmanlı dövləti ilə Azərbaycan, Gürcüstan və Ermənistan arasında imzalanan Batum müqavilələrinin üçüncü maddələrində öz əksini tapdı.

Yeni elan olunan Qafqaz respublikaları bir-birlərini rəsmən tanımaq məsələsini də öz aralarında ərazi-sərhəd problemlərini həll edənədək təxirə salmalı oldular. Nəticədə, Osmanlı dövləti ilə sərhədlərini təyin edən Qafqaz respublikaları öz aralarında olan ərazi-sərhəd mübahisələri ilə baş-başa qaldılar. Bu da öz növbəsində, bölgə xalqlarına, xüsusilə də azərbaycanlılara görünməmiş fəlakətlər gətirdi.

**2.Cənubi Qafqaz ərazisi və onun milli respublikalar arasında bölünməsi**

Rusiya imperiyasının süqutu ərəfəsində Cənubi Qafqazın ümumi ərazisi 214693,7 verst$^2$ və ya 244750,6 km$^2$-dən ibarət idi. Cənubi Qafqaz ərazisində 6 quberniya (Bakı, Yelizavetpol, İrəvan, Tiflis, Kutais, Qara dəniz), 3 vilayət (Batum, Qars, Dağıstan), 2 dairə (Zaqatala, Suxumi) və 1 şəhər rəisliyi (Bakı) var idi [42, s.178-218].

Cənubi Qafqaz inzibati vahidinin tərkibinə daxil olan Qara dəniz quberniyası və Dağıstan vilayətinin ərazisini onun ərazisindən çıxsaq, o zaman Cənubi Qafqazın ümumi ərazisinin 210000 km$^2$ təşkil etdiyi məlum olur. 1917-ci il noyabrın 15-də yaradılan Cənubi Qafqaz Komissarlığı, daha sonra 1918-ci il fevralın 23-də yaradılan Cənubi Qafqaz Seymi hüquqi cəhətdən məhz bu 210000 km$^2$ ərazini əhatə edirdi. 1918-ci il 3 mart tarixli Brest-Litovsk müqaviləsinə görə Osmanlı dövlətinə keçən Qars, Ərdəhan və Batum vilayətlərinin ərazisini (25500 km$^2$) çıxdıqdan sonra, Cənubi Qafqazın ümumi ərazisi 184500 km$^2$ təşkil etdi. Bu 184500 km$^2$ ərazi 1918-ci il aprelin 22-də yaradılan Cənubi Qafqaz Federativ Respublikasının və 1918-ci il mayın 26-da onun süqutundan sonra yaranan Gürcüstan, Azərbaycan və Ermənistan respublikalarının ümumi ərazisini təşkil etdi [Qafarov, 2022, s.76].

Osmanlı dövləti ilə Cənubi Qafqaz respublikaları arasında 1918-ci il iyunun 4-də imzalanan Batum müqavilələrinə görə, Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları Brest-Litovsk sülhünün Qafqaza aid maddələrini qəbul edib, Qars, Ərdəhan və Batumun Osmanlı dövlətinə keçdiyini təsdiq etməklə yanaşı, Tiflis quberniyasının Abastuman və Askueri istisna olmaqla Axalsıx və Axalkələk qəzalarının, İrəvan quberniyasının Aleksandropol qəzasının Ağbulaq, Hamamlı, Hanvalı, Qarakilsə və Alagöz dağı kimi şərq əraziləri istisna olmaqla qəza mərkəzi də daxil qərb hissəsinin, Eçmiədzin qəzasının Sərdarabad hissəsinin, Sürməli qəzasının tamamilə, İrəvan qəzasının Kəmərli, Uluxanlı və Vedibasar bölgələrinin, Şərur-

Dərələyəz qəzasının Şərur hissəsinin və Naxçıvan qəzasının (Ordubad istisna olmaqla) da Türkiyəyə keçdiyini təsdiq etdilər [Qafarov, 2022, s.76]. Batum müqavilələrinə görə, Osmanlı dövləti ümumilikdə 45500 $km^2$ əraziyə yiyələndi ki, bu ərazinin 25500 $km^2$-ni Brest-Litovsk sülhünə görə Osmanlı dövlətinə keçən Qars, Ərdəhan və Batum vilayətləri, yerdə qalan 20000 $km^2$-ni isə Batum müqavilələrinə görə yeni əldə edilən ərazilər təşkil edirdi [9, v. 60, 62-63, 68-71].

Həmçinin, Batum konfransında əldə edilən razılığa görə, Osmanlı dövlətinin yeni sərhədləri ilə Göyçə gölü arasında İrəvan şəhəri mərkəz olmaqla İrəvan quberniyasının Aleksandropol, Eçmiədzin və İrəvan qəzalarının Osmanlı dövlətinə keçən bölgələri istisna olmaqla yerdə qalan hissələrini və Yeni Bəyazid qəzasını (Basarkeçər istisna olmaqla) əhatə edən 9000 $km^2$ ərazidə erməni dövləti yaradıldı [9, v. 63, 68-71; Qafarov, 2019, s.86-87]. Azərbaycan Milli Şurası 1918-ci il 29 may tarixində keçirilən iclasında formal hüquqi prosedurları tamamlayıb, İrəvanın ermənilərə güzəştə gedilməsi ilə bağlı Batumda əldə edilən razılaşmanı rəsmiləşdirdi. Batum konfransının qərarlarına görə Osmanlı dövlətinə keçən 20000 $km^2$ ərazinin 14000 $km^2$-dən çox hissəsinin, həmçinin Ermənistan dövlətinin yaradıldığı 9000 $km^2$ ərazinin də tarixi Azərbaycan torpağı olduğunu nəzərə alsaq, o zaman məlum olur ki, Batum konfransının nəticələrinə görə, Azərbaycan Cümhuriyyəti ümumilikdə 23000 $km^2$-dən çox ərazi itirdi [Qafarov, 2022, s.77].

Beləliklə, yeni yaranan Cənubi Qafqaz respublikalarının Batum müqavilələrindən sonra ümumilikdə ərazisi 164500 $km^2$ təşkil etdi. Azərbaycan və Ermənistan hökumətlərinin rəsmi bəyanatlarına görə, bu ərazinin 100600 $km^2$-i Azərbaycan Cümhuriyyətinin, 9000 $km^2$-i Ermənistan Respublikasının, 54900 $km^2$-i isə Gürcüstan Respublikasının ərazisini təşkil etdi [7, v. 10-11; 9, v. 63, 69; Qafarov, 2022, s.77]. Bununla yanaşı, hər üç respublika sahibləndiyi ərazi ilə kifayətlənmir, qonşu respublikalara qarşı ərazi iddiaları ilə çıxış edirdilər. Buna görə də, Azərbaycan Cümhuriyyəti hökuməti Ermənistan və Gürcüstan respublikalarının Azərbaycana qarşı ərazi iddialarına qarşı da mübarizə aparmalı oldu.

**3.İstanbul konfransındakı Azərbaycan nümayəndə heyətinin Azərbaycan Cümhuriyyəti və onun əhatə etdiyi ərazilər haqqında bəyanatı**

Dördlər İttifaqı ölkələri ilə yeni yaranan Qafqaz respublikaları arasında əlaqələr qurmaq, qarşılıqlı münasibətləri tənzimləmək və ərazi-sərhəd məsələləri ilə bağlı problemləri müzakirə etmək məqsədilə İstanbulda keçirilməsi nəzərdə tutulan konfransda iştirak etmək üçün 1918-ci ilin iyun ayında Osmanlı paytaxtına gələn Cənubi Qafqaz respublikaları nümayəndə heyətlərinin fəaliyyəti bu respublikalar arasında ərazi-sərhəd məsələləri ilə

bağlı çox ciddi problemlərin olduğunu ortaya qoydu və heyətlərin fəaliyyəti daha çox qarşılıqlı ərazi mübahisələri ilə yadda qaldı.

1918-ci il iyunun 25-də Azərbaycan nümayəndə heyətinin (Məhəmməd Əmin Rəsulzadə, Xəlil bəy Xasməmmədov, Aslan bəy Səfikürdski, Əbdülhəmid Qaytabaşı, Əhməd Cövdət bəy Pepinov, Əkbər ağa Şeyxülislamov, Abbas bəy Ataməlibəyov, Məmməd bəy Xanməmmədov) rəhbəri M.Ə.Rəsulzadə İstanbul mətbuatına Azərbaycan haqqında geniş bəyanatla çıxış etdi. Ertəsi gün qəzetlərdə çap olunan bu bəyanatda, M.Ə.Rəsulzadə son bir ildə Qafqazda cərəyan edən hərbi-siyasi prosesləri şərh edir, müstəqil Azərbaycan dövlətinin yaranması, onun idarə sistemi və əhatə etdiyi ərazilər, Osmanlı dövləti ilə imzalanan Batum müqavilələri və Bakının azad edilməsi uğrunda aparılan birgə mübarizə haqqında məlumat verirdi. Azərbaycanın əhatə etdiyi ərazilərlə bağlı bəyanatda deyilirdi: "Bizim təşəkkül etmiş olan hökumətimizin ərazisi Bakı, Gəncə, İrəvan vilayətlərindən ibarətdir, Tiflis sancağının bir qismi ilə digər bəzi sancaqlar da bu əraziyə daxildir" [19]. Qafqaz respublikaları arasında sərhədlərin qəti olaraq hələ təyin edilmədiyini vurğulayan M.Ə.Rəsulzadə eyni zamanda, Azərbaycanla Ermənistan arasında sərhəd məsələsi ilə bağlı Batum konfransında əldə edilən razılaşmaları diqqətə çatdıraraq qeyd edirdi ki, "İrəvan vilayətinin İrəvan şəhəri Ermənistanda qalsa da, bu vilayətin digər hissələri Azərbaycan ərazisinə daxildir. Azərbaycanla Ermənistanın sərhədi Göyçə gölünün ortasından keçməklə, gölün bir sahili bizdə, digər sahili isə ermənilərdə qalır" [41].

Bu arada Osmanlı Xarici İşlər Nazirliyi Azərbaycan nümayəndə heyətinin rəhbəri M.Ə.Rəsulzadədən Azərbaycan Cümhuriyyətinin əhatə etdiyi ərazilər və sərhədlərini əks etdirən xəritə tələb etdi. M.Ə.Rəsulzadə Azərbaycanın xarici işlər naziri M.H.Hacınskiyə göndərdiyi 1918-ci il 28 iyun tarixli teleqramında Ənvər paşanın da Azərbaycan nümayəndələrinə ölkənin sərhədlərinin elan edilməsini təklif etdiyini və Almaniyanın da bu məsələ ilə maraqlandığını bildirirdi. O, yazırdı: "İyunun 24-də İstanbula yetişdik və Pera Palasda yerləşdik. Bir gün sonra Tələt paşanın qəbulunda olduq. Xarici işlər naziri, Ənvər paşa, Xəlil bəy, şeyxülislam və digər nazirlər də orada idilər. Eyni zamanda Almaniya səfiri Bernsdorfun qəbulunda olduq. Ənvər paşa təklif etmişdi ki, ərazilərimizin hüdudlarını elan edək. Hökumətdən rica edirik təcili şəkildə bunu etsin, əgər vaxtında edə bilməsəniz, biz özümüz müvafiq bəyanat hazırlayarıq. Bütün nümayəndələr buradadır. Bernsdorf bizi nəzakətlə qəbul etdi, bizim hökumətin təşkili qaydası, Milli Şura, siyasi partiyalar haqqında soruşdu. Eyni zamanda ordumuzun olub-olmadığı ilə, hansı qüvvə ilə Bakıya qarşı bolşeviklərlə mübarizə apardığımızla maraqlandı. Həmçinin soruşdu ki, biz konfransda sərhədlərimizin müəyyən edilməsini zəruri hesab edirikmi. Mən cavab verdim ki, bunu biz öz aramızda

həll etməyə ümidliyik, nəticələr barədə isə müttəfiqlərə məlumat verəcəyik. Fikirləşirik ki, konfrans Ramazan bayramından tez başlamayacaq" [4, v.52-53].

İstanbul hökumətinin təklifinə uyğun olaraq M.Ə.Rəsulzadə Azərbaycan Cümhuriyyətinin sərhədlərini xırda detallarına qədər izah edib və bunu xəritə üzərinə köçürüb [9, v. 26-27] iyulun 12-də Osmanlı Xarici İşlər Nazirliyinə təqdim etdi [9, v. 24-25]. M.Ə.Rəsulzadənin "Azərbaycan Hökuməti Hüdudları" başlığı ilə təqdim etdiyi bu sənəddə Azərbaycanın Türkiyə, Ermənistan, Gürcüstan və Dağıstanla olan sərhədləri dağ zirvələri və mühüm məntəqələrlə təsbit edilərək dəqiq göstərilmişdi [9, v. 25]. Bura bütün Bakı quberniyası (Bakı şəhəri də daxil olmaqla Bakı qəzası, Cavad, Göyçay, Şamaxı, Quba, Lənkəran qəzaları), bütün Yelizavetpol (Gəncə) quberniyası (Yelizavetpol (Gəncə), Cavanşir, Şəki, Ərəş, Qarabağ, Karyagin (Cəbrayıl), Zəngəzur, Qazax qəzaları), İrəvan quberniyasının bir hissəsi (Naxçıvan qəzasının Ordubad hissəsi, Şərur-Dərələyəz qəzasının bir hissəsi, Yeni Bayazid qəzasının bir hissəsi), Tiflis quberniyasının bir hissəsi (Borçalı, Sığnax və Tiflis qəzalarının bir hissəsi) və Zaqatala sancağı daxil idi [9, v. 24-25, 26-27; 7, v. 10-11; ARDA, v. 27].

Azərbaycan nümayəndə heyətinin rəhbəri M.Ə.Rəsulzadə ölkənin əhatə etdiyi ərazilər və sərhədləri ilə bağlı detallı məlumatları və bunun əsasında hazırlanan xəritəni Osmanlı hökumətinə təqdim etdikdən bir neçə gün sonra, 1918-ci il iyulun 17-də Azərbaycan Cümhuriyyətinin əhalisi, əhatə etdiyi ərazilər, dövlət quruluşu və iqtisadiyyatı ilə bağlı ayrıca bir bəyanatla da çıxış etdi [7, v. 10-11]. Bəyanat İstanbulda olan xarici ölkələrin səfirliklərinə təqdim edilməklə yanaşı, mətbuatda da dərc edildi. Türk və fransız dillərində qələmə alınan bəyanatda Azərbaycanın əraziləri ilə bağlı deyilirdi: *"1918-ci il mayın 28-də istiqlalını elan edən Azərbaycan Bakı və Gəncə vilayətlərini, Zaqatala sancağını və Tiflis və İrəvan vilayətlərinin bir qismini əhatə edir, ümumi ərazisi 100600 km$^2$-dir. Əhalisi 3400000 nəfərə yaxındır..."* [7, v.10-11].

**4.İstanbul konfransındakı erməni nümayəndə heyətinin bəyanatı**

1918-ci ilin yayında İstanbul konfransına gələn digər Qafqaz heyətləri də təmsil etdikləri ölkələrin quruluşu, idarə şəkli, əhatə etdiyi ərazilər və sərhədləri haqqında mətbuatda bəyanatla çıxış etməklə yanaşı, Osmanlı hökumətinə və İstanbuldakı səfirliklərə bu barədə notalar təqdim edirdilər. Bu bəyanat və notalarda Qafqaz respublikaları arasında qarşılıqlı ərazi iddiaları öz əksini tapırdı. 1918-ci ilin yayında Azərbaycana qarşı ən böyük ərazi iddiaları ilə çıxış edən ölkə Ermənistan idi. Bəhs edilən dövrdə İstanbuldakı erməni nümayəndə heyəti (Avetis Aharonyan, Alaksandr Xatisyan, Mixail Papacanov, Mixail Korqanov, Qriqor Xatisyan, Şahparyan, Tiqran Mirzayan, Aqop Koçaryan, Artin Adamyan, Leon Livicyan, Arşak

Aronyan) Ermənistanın Osmanlı imperiyası, Azərbaycan və Gürcüstanla münasibətlərini sülh və əminamanlıq üzərində qurmaq və ölkələr arasındakı sərhədləri tərəflərin qarşılıqlı razılığı əsasında müəyyən etmək istəyi ilə bağlı bəyanatla çıxış etsə də [24], gerçəkdə erməni hökuməti belə bir mövqedən uzaqda dayanırdı. Azərbaycan torpaqlarında özlərinə dövlət yaradan ermənilər bununla kifayətlənməyib, Azərbaycanın əzəli torpaqları olan Naxçıvan, Zəngəzur, Qarabağ, Qazax və digər bölgələrə ərazi iddiaları ilə çıxış edirdilər.

Erməni nümayəndə heyəti öz bəyanatında Ermənistan hökumətinin "Türkiyə erməniləri" məsələsi ilə maraqlanmadığını, bu məsələnin Osmanlı hökumətinin daxili işi olduğunu və buna görə də adı çəkilən məsələnin heyətin də proqramında olmadığını vurğulayır, daha sonra Avropa dövlətlərinin himayəsinə sığınmağın ermənilər üçün çox baha başa gəldiyini və bu dövlətlərdən erməni xalqına heç bir xeyir gəlmədiyini bəyan edir və artıq yorulan erməni xalqının bundan sonrakı dövrdə Osmanlı hökumətinin xeyirxahlığına sığınaraq Türkiyə, həmçinin Azərbaycan və Gürcüstanla yaxşı qonşuluq münasibətləri təsis edib sakit yaşamaq istədiyini bildirirdi [24; 29].

Erməni nümayəndə heyətinin üzvü A.Xatisyan İstanbul mətbuatına verdiyi müsahibəsində Qafqazda erməni dövlətinin məhz Türkiyənin yardımı ilə yaradıldığını etiraf edir və bundan sonrakı dövrdə də Ermənistanın yaşaması üçün İstanbul hökumətinin qayğı və köməyinə ehtiyac olduğunu xatırladaraq deyirdi: "Türkiyə Ermənistanın dünyaya gəlməsində əbəlik (mamaçalıq – V.Q.) vəzifəsini ifa etdi. Fəqət, əbənin bir vəzifəsi də dünyaya gətirdiyi körpənin böyüməsinə diqqət yetirməkdir" [21].

Bu vaxta qədər Rusiya, İngiltərə və Fransa kimi Avropa dövlətlərinin himayəsinə sığınıb Türkiyəyə qarşı etdikləri bütün pisliklərə baxmayaraq, onlara dövlətin məhz elə İstanbul hökuməti tərəfindən yaradıldığını etiraf edən ermənilər bundan sonrakı planlarını gürçəkləşdirmək üçün zahiri də olsa, Türkiyəyə sığındıqlarını və həmçinin qonşuları ilə normal münasibətlər qurub yaşamaq istədiklərini bəyan etsələr də, onların fəaliyyəti və bütün qonşularına qarşı ortaya qoyduqları ərazi tələbləri bunu mümkünsüz edirdi.

## 5.Ermənistan daxilində qalan müsəlmanların Türkiyə erməniləri ilə "yurd mübadiləsi" təklifi

İrəvan hökuməti və onun dəstəklədiyi erməni quldur dəstələri Ermənistanın ərazi iddiaları irəli sürdüyü Azərbaycan ərazilərində türk-müsəlman əhalisinə qarşı soyqırım cinayətləri həyata keçirməklə və müsəlmanlardan boşaldılan bu ərazilərdə Türkiyədən gələn erməni qaçqınlarını yerləşdirməklə demoqrafik vəziyyəti ermənilərin xeyrinə dəyişməkdə idilər. Ermənistan sərhədləri daxilində qalan müsəlmanlara qarşı da soyqırım və diskriminasiyanın miqyası son dərəcə genişlənmişdi. Ermənistan daxilində qalan müsəlmanların tamamilə məhv edilməsinin

qarşısını almaq məqsədilə Osmanlı hökuməti Ermənistandakı müsəlmanların Türkiyə erməniləri ilə yurd mübadiləsini həyata keçirməyi İrəvan hökumətinə təklif etdi və bununla bağlı 1918-ci il iyunun sonlarında Aleksandropolda tərəflər arasında danışıqlar aparıldı. Ermənistan təmsilçiləri bu danışıqlarda zahirən müsəlmanlarla ermənilərin mübadilə edilməsi təklifinə razı oldular, amma bunu əhalinin arzusu ilə etməyi şərt qoydular. Lakin bu şərt Osmanlı tərəfini təmin etmədi [9, v. 30]. Ermənistan təmsilçiləri ilə danışıqlar aparan 9-cu ordu komandanlığından Şərq Orduları Qrupunun komandan vəkili Əsəd paşa vasitəsilə Osmanlı Hərbi Nazirliyinə göndərilən 5 iyul 1918-ci il tarixli şifrəli teleqramda bütün bunlar haqqında geniş məlumat verilir və qeyd edilirdi ki, müsəlmanlarla ermənilərin mübadilə edilməsi təklifinə ermənilərin qoyduğu şərt, yəni bunun əhalinin arzusu ilə həyata keçirilməsi şərti qəbul edilərsə əgər, o zaman Osmanlı ərazilərindəki ermənilər İrəvan ərazisinə getmək istəməyəcək, amma oradakı müsəlmanlar məhv olmaqdan qurtulmaq üçün Osmanlıya hicrət edəcəklər, onsuz da müsəlmanlar hicrət etməkdədirlər [9, v.30]. Buna görə də erməni tərəfinin irəli sürdüyü şərt türklər tərəfindən qəbul edilmədi. Nəticədə, bu məsələnin də İstanbulda keçiriləcək konfransda müzakirə və həll edilməsi qərarlaşdırıldı. Osmanlı hökumətinə, eyni zamanda İstanbuldakı erməni nümayəndə heyətinə bu barədə məlumat verildi [9, v.30]. Lakin İstanbuldakı erməni nümayəndə heyəti bu məsələnin müzakirə və həll edilməsinə maraq göstərmədi. Çünki adı çəkilən heyətin qaldırdığı iddialar və ümumilikdə fəaliyyəti göstərir ki, onlar özləri üçün məqbul hesab etmədiyi belə məsələlərin həlli ilə məşğul olmaq niyyətində olmayıb, Ermənistanın ərazi sərhədinə malik olduğu hər üç dövlətə qarşı böyük ərazi iddiaları ortaya qoymuşdular.

## 6.Erməni nümayəndə heyətinin “Cənubi Qafqazın milli zəmində bölüşdürülməsi və sərhədlərin təyin edilməsi haqqında” notası

İstanbuldakı erməni nümayəndə heyəti Türkiyə mətbuatına verdiyi müsahibə və bəyanatlarında Ermənistanın Azərbaycan, Türkiyə və Gürcüstana qarşı yönələn ərazi tələbləri ilə çıxış etdi. Bunun ardınca, erməni heyəti 1918-ci il iyulun 20-də Osmanlı hökumətinə, eyni zamanda İstanbuldakı Almaniya, Avstriya-Macarıstan və Bolqarıstan səfirliklərinə “Cənubi Qafqazın milli zəmində bölüşdürülməsi və sərhədlərin təyin edilməsi haqqında” nota ilə müraciət edib Azərbaycan, Gürcüstan və Türkiyəyə qarşı ərazi iddiaları ilə çıxış etdi [9, v.60-74]. Notada göstərilirdi ki, “Cənubi Qafqazın ümumi sahəsi 210000 km$^2$, əhalisi isə 7100000 nəfərdir. Əhalinin 2650000 nəfəri müsəlman (müsəlman gürcülər istisna olmaqla), 1825000 nəfəri erməni, 1750000 nəfəri gürcü (bura 150000 müsəlman gürcülər də daxildir), 900000 nəfəri isə digər millətlərin nümayəndələridir. Brest-Litovsk müqaviləsində təsbit olunan Qars, Ərdəhan və Batum sancaqlarının ərazisi 25500 km$^2$, əhalisi isə 600000 nəfərdir. Bu

rəqəmlər çıxıldıqdan sonra Cənubi Qafqazda qalan ərazi 184000 $km^2$, əhali isə 6500000 nəfərdir ki, bunun da 2450000 nəfəri müsəlman, 1600000 nəfəri gürcü, 1650000 nəfəri erməni, 800000 nəfəri isə digər millətlərin nümayəndələridir. Cənubi Qafqaz millətləri malik olduqları ərazini öz aralarında bölmək məcburiyyətində qalmışlar. Müstəqil və siyasi bir mövcudiyyətə malik olmaq arzusu olmayan kiçik millətlər istisna olmaq şərtilə, üç millətin (müsəlmanlar, gürcülər və ermənilər) hökumət tərzində təşəkkül etməsi qəbul edilmişdir" [9, v. 60].

Erməni nümayəndə heyəti bu rəqəmləri sadaladıqdan sonra göstərirdi ki, hazırda Ermənistan Respublikası ərazisini təşkil edən və heç bir millət tərəfindən etiraz olunmayan ərazilər Yeni Bəyazid qəzası (Basarkeçər adlanan cənub-şərq qismi istisna olmaqla) və İrəvan, Eçmiədzin və Aleksandropol qəzalarının Türkiyəyə keçən hissələri xaric, yerdə qalan qisimləridir ki, bu ərazilər də ümumi olaraq 9000 $km^2$ təşkil edir və burada yaşayan 321000 nəfər əhalinin 230000 nəfəri erməni, 80000 nəfəri (bu rəqəmə 5000 kürd də daxildir) müsəlman, 5000 nəfəri yezidi, 6000 nəfəri isə digər millətlərin nümayəndələridir [9, v.63, 69].

Ermənistana ayrılan bu ərazi ilə heç cür razılaşmaq istəməyən erməni nümayəndə heyəti notasında göstərirdi ki, "hazırda Ermənistanın ərazisi 9000 $km^2$-dir ki, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşən bu ərazidə Cənubi Qafqazda olan ermənilərin cəmi 8-də 1 hissəsi yaşayır. Bu kiçik ərazi Cənubi Qafqazın ümumi ərazisinin cəmi 5 faizini təşkil edir, halbuki ermənilər Cənubi Qafqaz əhalisinin 29 faizini təşkil edirlər. Buna görə də, erməni nümayəndə heyəti Ermənistanı 52500 $km^2$ əraziyə malik bir dövlət kimi təsəvvür edir və bunun üçün də Araratdan Zəngəzura qədər olan bütün əraziləri, həmçinin ərazisi 7000 $km^2$ olan münbit Araz vadisini (baxmayaraq ki, bu ərazidə 100000 erməni və 160000 müsəlman yaşayır) tələb etməyi özünün vəzifəsi hesab edir" [9, v.63].

Notada həmçinin, Azərbaycan ərazisinin 94000 $km^2$, Gürcüstan ərazisinin 61500 $km^2$ (tələb edilən Axalkələk qəzası da daxil olduğu təqdirdə 76000 $km^2$) olduğu qeyd edilir və Cənubi Qafqazın belə bölünməsinin təbii və ədalətli olmadığı vurğulanır, adı çəkilən ərazinin milli zəmində üç yerə bölünməsi təklif edilir və bunun "əsaslandırılması" aparılırdı. Ermənilərin ərazi-torpaq tələbləri ondan ibarət idi ki, Türkiyə, Gürcüstan və əsasən də Azərbaycan torpaqları hesabına Ermənistanın ərazisi 52500 $km^2$-ə çatdırılsın [9, v. 65], Azərbaycanın ərazisi 70700 $km^2$-ə endirilsin [9, v.73, s.1], Gürcüstanın ərazisi də 61500 $km^2$ olsun [9, v.73, s.2]. Notada qeyd edilirdi ki, "bu halda Cənubi Qafqazın əhalisinin 43 faizini təşkil edən müsəlmanlar onun ərazisinin 40 faizinə, 28 faizini təşkil edən gürcülər onun ərazisinin 32 faizinə, 29 faizini təşkil edən ermənilər isə onun ərazisinin 28 faizinə sahib olacaqlar" [9, v.64]. Cənubi Qafqazın bölünməsində irqi-milli prinsipi təklif

edən ermənilər, Azərbaycan tərəfinin istinad etdiyi etnik-dini və coğrafi və gürcü tərəfinin istinad etdiyi tarixi nöqteyi-nəzərlərlə razılaşmırdılar.

Erməni heyətinin notasında qeyd olunurdu ki, Osmanlı dövləti ilə Cənubi Qafqaz arasında Batum müqavilələri ilə təsbit edilən sərhədlər dəyişməz qalacaqsa və eyni zamanda, gürcü və azərbaycanlıların böyük ərazi tələbləri gerçəkləşərsə, o zaman Cənubi Qafqaz ərazisinin üç respublika arasında bölünməsi aşağıdakı kimi olacaqdır: Azərbaycan - 53 faiz, Gürcüstan - 42 faiz, Ermənistan - 5 faiz [9, v.64]. Bu bölgünü doğru və ədalətli hesab etməyən erməni heyəti Osmanlı dövləti ilə Cənubi Qafqaz arasında Batum müqavilələri ilə təsbit edilən sərhədləri də qəbul etmir və Brest-Litovsk müqaviləsinin müəyyən etdiyi sərhədlərə istinad edirdi.

Qeyd etdiyimiz kimi, Batum konfransında Gürcüstanla Azərbaycan arasında sərhədlər müəyyən edilməsə də, erməni dövlətinin Osmanlı imperiyasının yeni şərq sərhədləri ilə Göyçə gölü arasında yaradılması və beləliklə də Ermənistan-Azərbaycan sərhədinin Göyçə gölü olması qərarlaşdırılmış və bu sərhədin sadəcə detallarının müəyyən edilməsi qalmışdı [12, v. 146, 150, 151; 11, v. 94, 96, 98, 100; 9, v. 4]. Erməni heyətinin notası İrəvan hökumətinin bütün bu razılaşmaları yerinə yetirmək istəmədiyi faktını da ortaya qoydu.

Erməni heyətinin notasında göstərilirdi ki, İrəvan quberniyası tamamilə, Tiflis quberniyasının cənub qismi və Yelizavetpol quberniyasının cənub-qərb hissəsi ermənilərə verilməli və nəticədə Ermənistanın ərazisi 52500 $km^2$-ə çatdırılmalıdır. Bu halda Ermənistan ərazisinə düşən 1762000 nəfər əhalinin 1154000 nəfəri erməni, 526000 nəfəri (bu rəqəmə 61000 kürd də daxildir) müsəlman, 25000 nəfəri yezidi, 7000 nəfəri gürcü və 50000 nəfəri digər millətlərin nümayəndələri olacaqdır [9, v.62, 65].

Erməni heyətinin notasına görə, İrəvan hökumətinin bütün qonşularına qarşı yönəlmiş ərazi tələbləri ümumilikdə 43500 $km^2$ təşkil edirdi ki, bu tələblər Ermənistanın ərazisindən təxminən 5 dəfə çox idi. Erməni ərazi tələblərinin 17600 $km^2$-i Türkiyəyə [9, v. 62-63, 68], 16500 $km^2$-i Azərbaycana [9, v.67, 66], 9400 $km^2$-i isə Gürcüstana qarşı yönəlmişdi [9, v.66].

Türkiyəyə qarşı yönələn 17.600 $km^2$-lik erməni ərazi tələbləri Batum müqavilələri ilə Osmanlı dövlətinə keçən, Brest-Litovsk sülhünün müəyyən etdiyi sərhədlərdən şərqdəki aşağıdakı əraziləri ehtiva edirdi: 1) Axalkələk qəzası (Canika və Tapikor gölü ətrafı daxil) – 3400 $km^2$; 2) Aleksandropol qəzasının bir qismi - 1600 $km^2$; 3) Eçmiədzin qəzasının bir qismi - 2300 $km^2$; 4) Sürməli qəzası - 3500 $km^2$; 5) İrəvan qəzasının bir qismi - 1000 $km^2$; 6) Şərur-Dərələyəz qəzasının bir qismi - 1800 $km^2$; 7) Naxçıvan qəzasının bir qismi - 4000 $km^2$ [9, v. 68]. Ermənilər saxta rəqəmlərlə əsaslandırmağa çalışırdılar ki, guya bu ərazilərdə yaşayan 750000 nəfər əhalinin 431000

nəfərini ermənilər, 272000 nəfərini (bu rəqəmə 33000 kürd daxildir) müsəlmanlar, 7000 nəfərini gürcülər, 20000 nəfərini yezidilər, 20000 nəfərini isə digər millətlərin nümayəndələri təşkil edir [9, v. 62-63, 68].

Erməni nümayəndə heyətinin notasına görə, Azərbaycana qarşı yönələn 16500 $km^2$-lik erməni ərazi tələbləri isə aşağıdakı əraziləri ehtiva edirdi: 1) Cavanşir qəzasının bir qismi – 3700 $km^2$; 2) Şuşa qəzasının bir qismi – 2300 $km^2$; 3) Zəngəzur qəzasının bir qismi – 6000 $km^2$; 4) Naxçıvan qəzasının bir qismi – 500 $km^2$; 5) Yelizavetpol qəzasının bir qismi – 2000 $km^2$; 6) Yeni Bəyazid qəzasının Basarkeçər qismi – 600 $km^2$; 7) Dərələyəz qəzasının bir qismi – 1300 $km^2$; 8) Karyagin qəzasının bir qismi – 100 $km^2$ [9, v. 67]. Ermənilər burada da saxta rəqəmlərlə əsaslandırmağa çalışırdılar ki, guya bu ərazilərdə yaşayan 470000 nəfər əhalinin 322000 nəfərini ermənilər, 147000 nəfərini (bu rəqəmə 23000 kürd daxildir) müsəlmanlar, 1000 nəfərini isə digər millətlərin nümayəndələri təşkil edir [9, v. 62, 67, 66].

Qeyd etdiyimiz kimi, erməni nümayəndə heyəti öz notasında birbaşa Azərbaycana qarşı yönələn erməni ərazi tələblərinin 16500 $km^2$ olduğunu bildirirdi. Lakin adı çəkilən notada Naxçıvan qəzası ilə bağlı Azərbaycana qarşı yönələn ərazi tələbi 5000 $km^2$ olaraq göstərilib. Bu halda notadakı Azərbaycana qarşı yönələn erməni ərazi tələblərinin qəzalar üzrə verilən sahələri toplandıqda alınan rəqəmin heç də 16500 $km^2$ deyil, 21000 $km^2$ olduğu məlum olur. Qənaətimizcə, bu adı çəkilən sənəddə yol verilmiş bir rəqəm xətasından irəli gəlib. Belə ki, Naxçıvan qəzası ilə bağlı verilmiş 5000 $km^2$ rəqəmi səhvən verilib, əslində bu rəqəm 500 $km^2$ olmalıdır. Çünki Batum müqavilələrinə görə, Naxçıvan qəzası (Ordubad istisna olmaqla) Türkiyəyə keçdiyindən, erməni heyəti Naxçıvanla bağlı ərazi tələbini (4000 $km^2$) Türkiyəyə, Ordubad isə Azərbaycanın tərkibində qaldığı üçün Naxçıvan qəzasının bu qismi ilə bağlı ərazi tələbini (500 $km^2$) Azərbaycana qarşı yönəldirdi [9, v. 68, 67].

Gürcüstana qarşı yönələn 9400 $km^2$-lik erməni ərazi tələbləri isə aşağıdakı əraziləri ehtiva edirdi: “Borçalı-Aleksandropol” qəzasının bir qismi – 6000 $km^2$ və Qazax qəzasının bir qismi – 3400 $km^2$ [9, v. 66]. Ermənilər burada da “əsaslandırırdılar” ki, bu ərazilərdə yaşayan 213420 nəfər əhalinin 171000 nəfərini ermənilər, 29000 nəfərini müsəlmanlar, 420 nəfərini gürcülər, 13000 nəfərini isə digər millətlərin nümayəndələri təşkil edir [9, v. 66]. “Borçalı-Aleksandropol” qəzasında yaşayan 133420 nəfər əhalinin 105000 nəfəri erməni, 15000 nəfəri müsəlman, 420 nəfəri gürcü, 13000 nəfəri digər millətlərin nümayəndələri, Qazax qəzasında yaşayan 80000 nəfər əhalinin 66000 nəfəri erməni, 14000 nəfəri isə müsəlman kimi göstərilirdi. Bundan əlavə, Tiflis şəhərində və onun ətrafında ermənilərin gürcülərdən çoxluqda olduğu xatırlanır və bu ərazinin erməni tələblərinə daxil edilmədiyi vurğulanırdı [9, v. 63, 72].

Ermənilər Qazax və Borçalı qəzaları ilə bağlı ərazi tələblərini Azərbaycana qarşı deyil, Gürcüstana qarşı irəli sürsələr də, əslində bu qəzalar tarixi Azərbaycan torpaqları idi və burada yaşayan əhalinin mütləq əksəriyyətini də türk-müsəlmanlar təşkil edirdilər. Bu zaman Gürcüstan da Qazax və Borçalı qəzaları ilə bağlı Azərbaycana qarşı ərazi tələbləri irəli sürmüşdü. Lakin ermənilər bu qəzalarla bağlı ərazi tələblərini yalnız Gürcüstana qarşı irəli sürür, Azərbaycanın bu qəzalarla bağlı tələblərini isə nəzərə almırdılar.

Erməni nümayəndə heyətinin notasına görə, Türkiyə Batum müqavilələri ilə Osmanlı dövlətinə keçən, Brest-Litovsk sülhünün müəyyən etdiyi sərhədlərdən şərqdəki əraziləri geri qaytardığı təqdirdə, bu ərazilərdən 7400 $km^2$-lik bir ərazinin Ermənistana keçməsinə nə Azərbaycan, nə də Gürcüstan heç bir etiraz etməyəcək [9, v. 71], 6800 $km^2$ əraziyə isə Azərbaycan tələb irəli sürəcəkdi [9, v. 74]. Azərbaycanın tələb irəli sürəcəyə ərazilər kimi Naxçıvan və Sürməli qəzaları, Şərur-Dərələyəz qəzasının Şərur qismi, İrəvan və Eçmiədzin qəzalarının bir qismi nəzərdə tutulurdu [9, v. 68]. Əlbəttə ki, bütün bu ərazilər tarixi Azərbaycan torpaqları idi və bu qəzalarda yaşayan əhalinin də mütləq əksəriyyətini türk-müsəlmanlar təşkil edirdilər. Bu ərazilərin Türkiyəyə keçmədiyi halda Azərbaycan tərəfinin bu ərazilərə iddia irəli sürməsi təbii və məntiqli idi. Əslində, Türkiyənin Brest-Litovsk sərhədlərindən şərqdəki ərazilərdən imtina etdiyi təqdirdə, Azərbaycanın tələb irəli sürəcəyi ərazilərin sahəsi 6800 $km^2$ deyil, bu rəqəmin təxminən iki qatı qədər idi. Görünür, erməni heyəti burada da "hesablama xətası"na yol verib.

Qeyd edək ki, Mudros barışığından sonra Türkiyə Batum müqavilələri ilə Osmanlı dövlətinə keçən əraziləri boşaldıb bu ərazilərdən geri çəkilən zaman Azərbaycan Cümhuriyyəti hökuməti İrəvan quberniyasının Naxçıvan və Sürməli qəzalarını, Şərur-Dərələyəz qəzasının Şərur hissəsini və İrəvan və Eçmiədzin qəzalarının bir hissəsini də özünün ərazisi elan etdi və bu əraziləri öz hakimiyyəti altına keçirmək uğrunda mübarizəyə başladı. Bununla da, Azərbaycan Cümhuriyyəti ərazisinin bəyan edilən ümumi sahəsi 100600 $km^2$-dən 113895,97 $km^2$-ə yüksəlmiş oldu [Qafarov, 2022, s.85].

Ermənistanın Türkiyə və Gürcüstana qarşı ərazi tələbi irəli sürdüyü torpaqların mütləq əksəriyyətinin də tarixi Azərbaycan əraziləri olduğu və Azərbaycan Cümhuriyyətinin də bu ərazilərə iddialı olduğu nəzərə alındığı təqdirdə, erməni heyətinin notasında Azərbaycan, Gürcüstan və Türkiyəyə qarşı irəli sürülən 43500 $km^2$-lik ərazi tələblərinin 40000 $km^2$-ə yaxın hissəsinin tarixi Azərbaycan ərazilərinə qarşı yönəldiyi məlum olur [9, v. 65, 66, 67, 68, 74].

Bütövlükdə, ermənilərin irəli sürdüyü ərazi tələblərinə görə, Axalkələk, Aleksandropol, Eçmiədzin, İrəvan, Sürməli, Şərur, Dərələyəz, Naxçıvan,

Ordubad, Şuşa-Cavanşir (Qarabağ), Zəngəzur, Qazax və Borçalı əraziləri Ermənistana verilməli idi [9, v. 60-74; 1, v. 20-21].

Notada ermənilərin tələb etdiyi ərazilərin sahələri və bu ərazilərdə yaşayan əhalinin etnik tərkibi ilə bağlı verilən cədvəllərin əksəriyyətində yer alan rəqəmlərin cəmi ilə erməni heyətinin çıxardığı yekun rəqəmlər arasında kəskin fərqlər vardır. Erməni heyəti tələb etdiyi ərazilərdə yaşayan millətlər və onların sayını ermənilərin xeyrinə saxtalaşdıraraq göstərir və bununla da Ermənistanın ərazi-torpaq iddialarını “əsaslandırmağa” çalışırdı. Ümumiyyətlə, notada ermənilərin xeyrinə saxtalaşdırma o qədər bəsit şəkildə edilib ki, cədvəllərdəki rəqəmlər arasındakı əlaqəyə belə fikir verilməyib, bir sonrakı cədvəldə verilən rəqəmlər özündən əvvəlki cədvəldə olan rəqəmləri təkzib edir.

**7.Erməni nümayəndə heyətinin notasına və Qarabağa dair erməni iddialarına qarşı Azərbaycan nümayəndə heyətinin əks arqumentləri**

Erməni heyətinin Cənubi Qafqazın milli zəmində bölüşdürülməsi və sərhədlərin təyin edilməsi ilə bağlı irəli sürdüyü layihə haqqında məlumatı Azərbaycan nümayəndələrinə Ənvər paşa verdi [4, v. 25]. Lakin buna qədər Azərbaycan nümayəndə heyəti Ermənistanın ərazi tələbləri ilə bağlı İstanbul mətbuatından məlumat almış və buna qarşı sərt mövqe ortaya qoymuşdu. M.Ə.Rəsulzadə 1918-ci il iyulun 4-də “Azərbaycan-Ermənistan sərhəd məsələsi” ilə bağlı mətbuatda geniş bəyanatla çıxış etmişdi. Bəyanatda “Osmanlı imperiyası ilə Ermənistan Respublikası arasında Batumda imzalanan müqaviləyə görə ermənilərin yalnız Göyçə gölünün qərbində Gümrü, Eçmiədzin və İrəvan qəzalarının bir hissəsində bir erməni hökuməti təsis edə biləcəkləri” vurğulanır və ardınca qeyd edilirdi ki, Batumda Ermənistanla Azərbaycan arasında sərhədin Göyçə gölü olduğu qərarlaşdırılsa da, iki ölkə arasında sərhəd xəttinin detalları hələ ki, təyin edilməmiş və bundan istifadə edən ermənilər Azərbaycana qarşı bir sıra ərazi tələbləri irəli sürmüşlər. Bu istəklər göstərir ki, Ermənistan hökuməti erməni təşkilatı tərəfindən ortaya atılan sərhəd layihəsinin təsirindən çıxa bilməmişdir. Çünki uzun zamandan bəri Cənubi Qafqazın idarəçilik bölgüsünü dəyişmək erməni təşkilatının ən böyük məqsədi idi [21, s.6]. Bəyanatda həmçinin, ermənilərin Cənubi Qafqazın heç bir quberniya və qəzasında toplu olaraq yaşamadıqları, onların hər tərəfdə dağınıq və əksəriyyəti təşkil edən müsəlman əhalinin içində yaşadıqları vurğulanır və erməni heyətinin ərazi tələbləri irəli sürdüyü qəzaların etnik tərkibi ilə bağlı verdiyi məlumatların saxta olduğu və həqiqəti əks etdirmədiyi, əslində isə o qəzaların hamısında türk-müsəlman əhalinin mütləq çoxluq təşkil etdiyi diqqətə çatdırılır və daha sonra qeyd edilirdi ki: *“Daşnaksütyun partiyasının təşəbbüsü ilə ortaya atılan bu layihəyə görə Gəncə vilayəti ikiyə bölünməli: dağlıq hissələri Ermənistana, sırf müsəlman əhali ilə məskunlaşan ovalıq*

*qismi isə Azərbaycana verilməlidir. Gəncə vilayətinin bu şəkildə bölünməsi 900 minə qədər müsəlman əhalini iki yerə parçalayır ki, bu da sağlam vücudu parçalamaq, onu həm iqtisadi və həm də siyasi məhkum və məhv etmək deməkdir. Ovalarda yaşayan müsəlman əhali dağlıq hissədən məhrum olarsa, bütün iqtisadi həyatı iflic olar. Ovada yaşayanlar əksəriyyət etibarilə heyvandarlıqla məşğul olurlar. Yayda çobanlar davar və mallarını dağa çıxara bilməsələr, bütün sərvətləri tələf olar. Bunun üçün də onlar dağa köçmək məcburiyyətindədirlər. Bu köçərilik yalnız mal və davarlarını deyil, onların özlərini belə qızdırma və digər xəstəliklərdən xilas edir... Həmçinin, ovaları sulayan çaylar dağlardan gəlir. Əgər bu suların məcrası başqa bir tərəfə çevrilərsə, yaxud sadəcə suyun verilməsinin qarşısı alınarsa, o zaman səhradakı zəngin pambıq, buğda, düyü və s. əkinlər tamamilə məhv olar. Ovalıqda yaşayanlar dağda yaşayanlardan daha çox suya möhtacdırlar... Buna görə də həyat mənbələri olan suların başqa bir idarədə, başqa bir hökumət və millət idarəsində olmasına qətiyyən razı olmazlar. Ovalıq olan yerlərdə meşələr yox kimidir. Halbuki dağlar meşələrlə örtülüdür. Ovalıqdakı evlər və digər tikililər üçün material dağdakı meşələrdən gətirilir. Təbiidir ki, ovalıqdakılar meşəsiz qala bilməzlər...”* [21, s.6-7].

Azərbaycan nümayəndə heyətinin rəhbəri bütün bu arqumentləri gətirməklə göstərirdi ki, Gəncə vilayətinin dağlıq hissəsi ilə ovalıq hissəsini bir-birindən ayırmaq mümkün deyildir. Bu ərazilərin bir-biri ilə iqtisadi cəhətdən bağlı və asılı olduqlarını da faktlarla göstərən M.Ə.Rəsulzadə ən əsas arqumentə gələrək qeyd edirdi ki, Gəncə vilayətinin dağlıq hissəsi heç də erməni heyətinin iddia etdiyi kimi yalnız ermənilərlə məskun deyildir. Dağların yuxarı qisimləri tamamilə müsəlman əhali ilə məskundur ki, bunu statistik məlumatlar və etnik xəritələr də göstərir. Bütün bunları diqqətə çatdırdıqdan sonra M.Ə.Rəsulzadə bəyan edirdi ki, müəllifi Daşnaksütyun olan bu layihənin qəbul edilməsi 900 min müsəlmanın iflası və onların 3 milyona qədər mal və davarının məhvi demək olacaq [21, s.7].

M.Ə.Rəsulzadə, bəyanatının sonunda İrəvan məsələsinin tarixin diktəsi və hərbi məcburiyyətlə ermənilərin xeyrinə həll edildiyini xatırladır və ardınca bildirirdi: “Əlqərəz, bizcə Ermənistanın Azərbaycanla olacaq hüdudu Göyçə gölünün ortasından bir ayırıcı xətt çəkmək şərtilə ola bilər və bu xəttin şərqinə qətiyyən keçə bilməz” [21, s.7].

Bu bəyanatdan sonra qəzet müxbirinin Azərbaycan nümayəndəsinə ünvanladığı “Sərhəd məsələsində ermənilər etnoqrafiyaya, gürcülər isə tarixi əsaslara istinad edir, siz hansı nöqteyi-nəzərə istinad edirsiniz” sualına M.Ə.Rəsulzadə “biz həm etnoqrafiya, həm də coğrafiya qanunlarına istinad edirik” deyə cavab verdi. Müxbirin “yəni tarixi nöqteyi-nəzərə etibar etmirsiniz” sualına isə M.Ə.Rəsulzadə aşağıdakı cavabı verdi: “Biz tarixi irəli sürmək istəmirik. Çünki bu halda bütün Cənubi Qafqazı istəmək lazım gələr!

Bu isə digər millətlərə bizim hakim olmağımızı istəmək deməkdir. Halbuki bu keçmişə aiddir. İndi biz millətlərin öz müqəddəratlarını təyin etmələri prinsipini qəbul etmiş olduğumuzdan belə bir iddiada olmaq istəmirik" [21, s.7].

M.Ə.Rəsulzadənin bu bəyanatını dərc edən "Haftalık Qazete" Azərbaycan-Ermənistan ərazi-sərhəd problemləri ilə bağlı erməni tərəfinin mövqeyini öyrənməyə çalışdı. Erməni nümayəndə heyətinin etnoqrafiya və sərhəd məsələləri üzrə müşaviri Qriqor Xatisyan, ermənilərə ayrılan ərazinin çox kiçik olmasını ədalətsiz hesab edərək, Cənubi Qafqazın əhali sayına görə və hər millətin öz ərazisində 70 faizdən yuxarı əksəriyyət təşkil etməsi prinsipinə uyğun olaraq üç millət arasında bölünməsini təklif etdi və erməni heyətinin yuxarıda qeyd etdiyimiz "Cənubi Qafqazın milli zəmində bölüşdürülməsi və sərhədlərin təyin edilməsi haqqında" notasının müddəalarını bəyan etdi. Q.Xatisyan təklif edirdi ki, Cənubi Qafqaz ərazisi etnik prinsiplərə görə bölünərsə əgər, bu halda ərazinin 42 faizi müsəlmanlara, 29 faizi gürcülərə və 28 faizi də ermənilərə düşməlidir. Lakin bu halda gürcü və müsəlmanlar öz ərazilərində mütləq əksəriyyəti təşkil etsələr də, ermənilər bütün Cənubi Qafqaz ərazisinə səpələndiyindən onlar Ermənistanda heç 70 faiz nisbətini təşkil edə bilməzlər [22, s.6-7].

Q.Xatisyan həmçinin "Haftalık Qazete"nin 1918-ci il 1 avqust tarixli 6-cı sayında M.Ə.Rəsulzadənin adı çəkilən qəzetin 1918-ci il 4 iyul tarixli 2-ci sayında dərc edilmiş, yuxarıda haqqında bəhs etdiyimiz, bəyanatına da cavab bəyanatı ilə çıxış etdi. Bəyanatda Azərbaycan nümayəndəsinin Cənubi Qafqazın milli zəmində bölüşdürülməsi və sərhədlərin təyin edilməsi ilə bağlı erməni layihəsini istehza ilə qarşılamasına və Cənubi Qafqazın əhalisinin 29 faizini təşkil edən ermənilərə bu ərazinin cəmi 5 faizinin ayrılmasını ədalətli hesab etməsinə təəssüf ifadə edilir, Gəncə quberniyasının dağlıq hissəsinin ermənilərə verilməsinin mümkünsüzlüyü ilə bağlı M.Ə.Rəsulzadənin gətirdiyi arqumentlərin "əsassız" olduğu göstərilirdi. Q.Xatisyan irəli sürülən erməni ərazi iddialarının sağlam əsaslara söykəndiyini iddia edir və Azərbaycan tərəfi ilə ərazi-sərhəd məsələsində ortaq məxrəcə gəlməyin mümkün olmadığı təqdirdə bu məsələnin beynəlxalq hakimlərin ixtiyarına verilməsini təklif edirdi [Hatisyan Gregor,1334, s.4-6].

Erməni nümayəndəsinin bu bəyanatı dərc edildikdən sonra M.Ə.Rəsulzadə "Haftalık Qazete"nin redaksiyasına xüsusi məktubla müraciət etdi. Məktubda Q.Xatisyanın bəyanatına etiraz edilir və onun gətirdiyi arqumentlərin əsassız olduğunu sübut etmək məqsədilə Azərbaycan nümayəndə heyətinin üzvü Ə.Şeyxülislamov tərəfindən hazırlanan izahat təqdim edilirdi. Adı çəkilən qəzetin 1918-ci il 15 avqust tarixli 8-ci sayında dərc edilən bu izahatda Cənubi Qafqazın quberniya və qəzalarının demoqrafik və etnoqrafik vəziyyətini əks etdirən statistik məlumatlar və bu məlumatlar əsasında

hazırlanan etnoqrafik xəritələr yer almışdı. Burada tarixi-etnoqrafik və coğrafi dəllillər əsasında aparılan təhlillərlə erməni iddialarının əsassız olduğu sübut edilir və göstərilirdi ki, Cənubi Qafqazda ermənilər kompakt deyil, səpələnmiş şəkildə yaşadıqları üçün onların yaşadıqları ərazilərdən bir erməni dövləti təşkil etmək mümkün deyildir. Erməni heyətinin tələb etdiyi 1.200.000 nəfər ermənininin yaşadığı bir Ermənistan təşkil etmək üçün 857.000 nəfər erməni olmayan və əsasən də müsəlmanlar olan əhalini də bu dövlətin ərazisinə daxil etmək lazım olacaqdır ki, bu da Ermənistan əhalisinin 40 faizindən çoxu deməkdir. Müqayisə üçün qeyd edilirdi ki, Azərbaycan əhalisinin 73,2 faizini müsəlmanlar, 17 faizini ermənilər, 9,8 faizini isə digər millətlərin nümayəndələri təşkil edir. Faktlar və rəqəmlər əsasında bütün bu izahatlar verildikdən sonra, yekun olaraq qeyd edilirdi ki: 1. Nisbət prinsipi milli-məhəlli prinsipə zidd olduğu üçün rədd edilməlidir; 2. Erməni millətini bir hökumət dairəsində toplamaq imkanı yoxdur. Hansı surətdə olursa olsun, Ermənistanda qalan müsəlmanların sayı ən azı 35 faizdən yuxarı olur. Halbuki, Azərbaycanda qalan ermənilərin sayı cəmi 17 faiz təşkil edir; 3. Gəncə vilayətinin bölünməsi istər iqtisadi, istər topoqrafik və istərsə də milli nöqteyi-nəzərdən mümkün deyildir. Bu vilayətin dağlıq qisminin ovalıqdan ayrılması toplu halda yaşayan və sayca mühüm bir nisbət təşkil edən müsəlmanları parçalamaq deməkdir; 4. Ermənilər düşdükləri vəziyyətin olduqca əlverişsiz olduğunu etiraf etməlidirlər. Fəqət bundan qonşular deyil, məsul olan bir şey varsa, o da erməni millətinin son dərəcə dağınıq bir şəkildə məskunlaşmasıdır. Eyni zamanda, bu məsələnin hansısa bir süni vasitələrlə həlli belə mümkün təsəvvür edilmir; 5. Qonşularımız olan ermənilərə milli məsələlərinin həlli üçün çalışdıqları bu kimi vasitələrdən əl çəkərək daha müvafiq bir həll yolu tapmaq lazımdır ki, bu yol da hər iki millətin həyati mənafelərini daha çox anlamaq və daha çox əməkdaşlıqla hərəkət etmək istiqamətinə yönəlmiş olsun [18, s.1-4].

Azərbaycan nümayəndə heyətinin bu izahatına erməni heyəti adı çəkilən qəzetin 29 avqust 1918-ci il tarixli 10-cu sayında cavab verib bir daha əvvəlki mövqeyini təkrarladı və öz iddialarını “əsaslandırmağa” çalışdı [23, s.2-4].

Azərbaycan nümayəndə heyəti Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının heç bir əsasının olmadığını və faktiki olaraq mövcud olan Ermənistan Respublikasının da Azərbaycan torpaqlarında yerləşdiyini dəfələrlə bəyan etməli oldu. M.Ə.Rəsulzadə İstanbul mətbuatına verdiyi müsahibələrində Qarabağın dağlıq hissəsi və digər tarixi Azərbaycan torpaqlarına ərazi iddiaları ilə çıxış edən ermənilərin Ermənistan ərazisi daxilində qalan ərazilərdə, xüsusilə də Yeni-Bəyazid qəzasında türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi qırğın və qarətləri də dilə gətirir, Azərbaycan hökumətinin bununla bağlı İrəvan hökumətinə verdiyi notaları

xatırladır və bu hallar qarşısında ermənilərlə sülh şəraitində yaşamağın mümkün olmayacağını bəyan edirdi [20, s.3].

M.Ə.Rəsulzadə İstanbuldan Azərbaycanın xarici işlər naziri M.H.Hacınskiyə göndərdiyi 1918-ci il 19 iyul tarixli məktubunda ermənilərin ərazi iddialarından bəhs edərək bildirirdi: "Ermənilər burada şiddətli bir surətdə türkpərəstlik propaqandası açmışlar. Fikirləri odur ki, yerlərini bir az bizə, bir az da türklərə doğru genişlətsinlər..." [4, v. 47a]. O, M.H.Hacınskiyə göndərdiyi 1918-ci il 4 avqust tarixli məktubunda da ermənilərin ərazi tələbləri və saxta statistikasından bəhs edərək yazırdı: "Ermənilər arzu etdikləri hüdud üçün Ənvər paşa həzrətlərinə bir layihə və bir xəritə təqdim etmişlər. Bu xəritədən görünür ki, onlar Türkiyədən Sürməli, Naxçıvan, Axalkələk, Eçmiədzin və İrəvan sancaqlarını, gürcülərdən Borçalını, Azərbaycandan da Qazax, Qarabağ, Zəngəzur və Ordubadı tələb edirlər. Bunu bir çox sənəd və statistik rəqəmlərlə də isbat edirlər. İsbat edirlər ki, buralarda yüzdə 70 erməni camaatı məskunlaşıb. Və bu surətlə bölünmüş olan Cənubi Qafqaz ən adilanə bir surətdə bölünürmüş..." [4, v. 25].

1918-ci il iyulun 29-da M.Ə.Rəsulzadə ilə Ənvər paşa arasında baş tutan görüşdə Azərbaycanla Gürcüstan və Ermənistan arasında olan ərazi-sərhəd mübahisələri geniş müzakirə olundu. Cənubi Qafqaz ölkələri arasında olan ərazi-sərhəd problemləri ilə bağlı ətraflı məlumata malik olan Ənvər paşa Azərbaycan nümayəndəsinə bildirdi ki, Azərbaycanın həm gürcülərlə, həm də ermənilərlə ərazi-sərhəd mübahisələrinin olması və eyni zamanda bunların hər ikisi ilə mübarizə aparması müvafiq deyildir. O, təklif etdi ki, bu mübahisələrin sülh yolu ilə həlli üçün qarşılıqlı güzəştlər olmalıdır. Azərbaycan nümayəndəsinin təqdim etdiyi layihə və xəritəyə istinad edən Ənvər paşa qeyd etdi ki, "xəritəyə görə Borçalı vasitəsilə Türkiyəyə bir koridor açılır. Fəqət bu yerlər hal-hazırda gürcülərin əlindədir. Eyni zamanda, Azərbaycan layihəsinə görə Qazax qəzasının bir qismi ermənilərə tərk olunur. Halbuki, ermənilərə bir az vüsət vermək onların iştahasını oyatmaq deməkdir. Yaxşı olardı ki, Azərbaycan layihəsində təsəvvür olunan Borçalı ilə Tiflis sancağının mühüm bir qismi gürcülərə verilmək surətilə onlarla bir itilaf hasil olaydı və o zaman Qazax (qəzasının bir qismi - V.Q.) ermənilərə verilməyəydi. Əksinə buradan keçməklə Borçalının cənub qismindən Türkiyəyə arzu olunan koridor açılaydı. Ermənilərin hüdudu isə əski İrəvan quberniyası hüdudu ilə gedəydi. Bunun müqabilində olaraq Daralagözü (Dərələyəz - V.Q.) bəlkə də ermənilərə tərk etmək olar" [4, v. 26]. M.Ə.Rəsulzadə bildirdi ki, "şübhəsiz bizim layihədə Niftlikdən keçən sərhəd gürcülərin ifratına qarşı və kabil-i ifratdır. Oradan geri çəkilmək bizə mümkündür. Sığnax sancağından da bir qədər verə bilərik. Fəqət müsəlmanlardan ibarət Borçalını tərk etmək əvəzində ermənilərdən ibarət bir hissəni götürmək onsuz da Azərbaycanda çox olan Ermənistan ünsürünü

çoxaldır, bizi isə azaldır. Daralagözü tərk etmək isə qətiyyən mümkün deyildir. Çünki burasının böyük əksəriyyəti müsəlmandır" [4, v. 26-26a]. Azərbaycan nümayəndəsinin gətirdiyi arqumentləri dinləyən Ənvər paşa "elədirsə, Daralagözü də verməyin" dedi [4, v. 26a]. Daha sonra Ənvər paşa M.Ə.Rəsulzadəyə tövsiyyə etdi ki, siz öz nöqteyi-nəzərinizdə israr edin, lakin gürcülərlə anlaşmaq üçün də bir layihəniz olsun. M.Ə.Rəsulzadə də Ənvər paşadan xahiş etdi ki, gürcülərə də Azərbaycanla anlaşmağı tövsiyyə etsin.

Lakin gürcülərin fəaliyyəti göstərdi ki, onlar da ermənilər kimi, Azərbaycana qarşı olan ərazi-sərhəd iddialarını silah yolu həll etmək istəyirlər. Ənvər paşanın tövsiyyəsinə uyğun olaraq M.Ə.Rəsulzadə gürcü nümayəndə heyətinin üzvü G.Qvazava ilə görüşüb Azərbaycanla Gürcüstan arasında olan ərazi-sərhəd məsələlərini müzakirə etmək istədi. Lakin bu zaman G.Qvazava cibindən bir xəritə çıxarıb Azərbaycan nümayəndəsinə göstərdi. Bu xəritədə Gürcüstanın ərazisi bir tərəfdən Göyçə gölü və Qazax qəzasına qədər enir, digər tərəfdən Zaqatalanı da az qala ehtiva edirdi. Gürcü nümayəndəsi bu xəritəni göstərərək, "ancaq bunu əsas tutaraq sərhədlərin təyin edilməsi xüsuslarını danışmaq olar, yoxsa qətiyyən barışmarıq, qan tökmək lazım gələr" deyə sərt bir mövqe ortaya qoydu. M.Ə.Rəsulzadə də gürcü nümayəndəsinə "nə edək, məcbur qalınca qan da tökmək olar" deyə bir cavab verdi [4, v. 18a]. Bununla da, Azərbaycan tərəfinin Gürcüstanla olan ərazi-sərhəd mübahisələrini İstanbulda danışıqları yolu ilə həll etmək üçün göstərdiyi təşəbbüs nəticəsiz qaldı.

1918-ci il sentyabrın əvvəllərində məlum oldu ki, artıq dünya müharibəsinin gedişi, həmçinin Türkiyə və Almaniya arasında mövcud olan ziddiyyətlərin dərinləşməsi ilə əlaqədar olaraq İstanbul konfransının toplanması məsələsi gündəlikdə deyil. Bunu yəqin edən gürcü və erməni nümayəndə heyətlərinin sorğusuna cavab olaraq Osmanlı hökuməti məsləhət bildi ki, daha iki həftə gözləsinlər, əgər bu müddət ərzində hansısa bir dəyişiklik olmazsa, o zaman hər bir heyət İstanbulda bir-iki nümayəndə saxlamaqla Osmanlı paytaxtını tərk edə bilər [33, s.2; 30, s.2; 31, s.3]. Osmanlı hökuməti belə hesab edirdi ki, Tələt paşanın Berlin səfərində İstanbul konfransı ilə bağlı yekun qərar veriləcəkdir [34, s.2]. Sentyabrın 6-da Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz heyətləri Osmanlı sultanı tərəfindən qəbul edildi [35, s.2]. Bir qədər sonra gürcü heyəti G.Qvazavanı İstanbulda saxlayaraq, Tiflisə hərəkət etdi. Azərbaycan və erməni heyətləri isə hələ bir müddət İstanbulda qaldılar [36, s.3; 37, s.2].

1918-ci il sentyabrın 20-də Ermənistanın xarici işlər naziri A.Xatisyan İstanbuldakı erməni nümayəndə heyəti adından Osmanlı xarici işlər naziri Əhməd Nəsimi bəyə bəyanat göndərdi. Müharibə dövründə və ondan sonrakı dövrdə Ermənistanın daxili işləri, ədliyyə, maliyyə, hərbi və xarici işləri kimi məsələlərlə bağlı açıqlamaların yer aldığı bu bəyanatda müharibənin yol

açdığı zərərlərin aradan qaldırılması, türk qoşunlarının Ermənistan ərazisindən çıxarılması və erməni qaçqınlarının öz yerlərinə qaytarılmasının vacib olduğu vurğulanır, habelə Ermənistanın Türkiyə, Gürcüstan və Azərbaycanla sərhədlərinin etnik prinsiplərə uyğun təyin edilməsi və sərhədlərin qarşılıqlı qorunmasının zəruri olduğu bəyan edilirdi [8, v. 2-5].

Bu zaman Vyana mətbuatı ("Leipziger und Zeitung") Qafqaz ölkələri arasında mövcud ərazi-sərhəd və digər problemlərin həlli üçün ən yaxşı yol kimi bu ölkələrin Türkiyənin himayəsi altında federasiya təşkil etməsini təklif etdi [40, s.2; 38, s.1; 39, s.11]. Lakin heç bir Qafqaz ölkəsi bu təklifə müsbət yanaşmadı. Çünki Gürcüstan Almaniyanın himayəsinə girmişdi. Ermənistan da buna can atırdı. Azərbaycan və Şimali Qafqaz isə onsuz da Türkiyə ilə ittifaqda hərəkət edirdilər.

1918-ci ilin sentyabr ayının sonlarında dünya müharibəsinin gedişində baş verən hadisələr və Almaniya-Osmanlı blokunun artıq məğlubiyyət ərəfəsində olması ilə əlaqədar olaraq Dördlər İttifaqı ölkələri ilə Qafqaz respublikaları arasında İstanbulda keçirilməsi nəzərdə tutulan konfrans baş tutmadı. Bununla da Qafqaz respublikaları arasında mübahisəli ərazi-sərhəd məsələlərinin İstanbul konfransında həll edilməsinə olan ümidlər puça çıxdı. Qafqaz respublikalarının İstanbulda olan nümayəndə heyətləri geri qayıtdılar.

**8.Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və Qarabağ məsələsi ilə bağlı Tiflis və İrəvanda aparılan müzakirələr**

Ermənilərin Azərbycana qarşı qaldırdığı ərazi iddiaları Tiflisdə Azərbaycan, Ermənistan və Almaniya nümayəndələri arasında da müzakirə mövzusu oldu. Ermənistanın Gürcüstandakı diplomatik təmsilçisi Arşak Camalyan Qarabağa olan erməni iddialarını təmin etmək üçün bir tərəfdən Qafqazdakı alman hərbi missiyasının rəhbəri von Kressin bu məsələyə müdaxilə etməsinə çalışır, digər tərəfdən 1918-ci il iyulun 23-də Azərbaycanın Gürcüstandakı diplomatik təmsilçisi Məmməd Yusif Cəfərova məktub göndərərək, Gəncə quberniyasının dağlıq hissəsinin Azərbaycanla Ermənistan arasında mübahisəli ərazi olmasını bəyan edir və bu məsələnin İstanbul konfransında həll ediləcəyini bildirirdi. Lakin M.Y.Cəfərov A.Camalyanın məktubuna qəti etiraz edərək, Qarabağın mübahisəli ərazi olmadığını bəyan etdi [3, v. 1-2].

1918-ci ilin iyulunda Nuru paşanın Qarabağdakı erməni quldur dəstələrini zərərsizləşdirmək məqsədilə ora qoşun göndərməsindən narahat olan ermənilər von Kressə müraciət edərək ondan kömək istədilər. Von Kress erməni nümayəndəsinə Qarabağda türk komandanlığına qarşı düşmənçilik hərəkətlərinə yol verməməyi məsləhət görməklə [2, v. 43] yanaşı, Nuru paşaya ünvanladığı məktubunda da Qarabağa türk-müsəlman əsgərlərinin yeridilməsinin qarışıqlığa səbəb olacağını, qan töküləcəyini və bunun üçün də İstanbul konfransına qədər mövcud status-kvonun qorunub saxlanılmasının

vacib olduğunu bildirirdi [10, v. 31]. Nuru paşa Osmanlı Hərbi Nazirliyinə göndərdiyi 1918-ci il 3 avqust tarixli raportunda "indiyə qədər gürcüləri himayə etmək məqsədilə müsəlmanlarla müharibə aparan almanların indi də erməniləri himayə etməyə başlamasını" vurğuladıqdan sonra von Kressin Qarabağa qoşun yeritməməklə bağlı məktubu haqqında məlumat verir, daha sonra isə qeyd edirdi: "Göyçə gölünün şərq sahili tamamilə müsəlman olduğundan bu ərazinin Azərbaycanda qalması lazımdır. Qarabağa gəlincə, buranın əhalisinin dörddə üçü müsəlman, dörddə biri ermənidir. Ermənilər Şuşa ətrafında sıxlıq təşkil etsələr də, buranın ətrafı tamamilə müsəlmandır. Buna görə də Göyçə gölünün cənubunda Azərbaycan əhalisi olduğundan buranın Osmanlı mülkünə həmsərhəd olması zəruridir. Bakıdan Culfaya gedən dəmir yolunun yüzdə altmışı artıq tikildiyindən bu xəttin heç bir əcnəbi ərazisindən keçmədən Osmanlı dəmir yolları ilə birləşməsi fövqəladə dərəcədə mühümdür. Qarabağ Qafqazın mədən cəhətdən ən zəngin bir məntəqəsi olub, hazırda üç böyük mis mədəni işlədilməkdə olduğu ilə yanaşı, dəmir, qurğuşun, qalay, sink mədənləri də çox boldur. Son olaraq, Qarabağ yaylaları Kür və Araz çayları vadisində yaşayan iki milyon müsəlmanın yeganə həyat mənbəyi olduğundan, bu ərazi olmadan Qarabağ əhalisinin yaşamaları ehtimalı yoxdur" [10, v. 31]. Nuru paşanın bu raportunun bir surəti avqustun 25-də Baş Komandanlıq Vəkalətindən Osmanlı Xarici İşlər Nazirliyinə göndərildi ki, Qarabağla bağlı erməni iddiaları müzakirə olunarkən bu xüsuslar nəzərə alınsın [10, v. 30].

1918-ci il sentyabrın 15-də Bakının azad edilməsindən sonra Qafqaz İslam Ordusu bir tərəfdən Dağıstan əməliyyatını, digər tərəfdən də Qarabağ əməliyyatını həyata keçirməyə başladı. Çünki Qarabağdakı erməni silahlı birləşmələri bu ərazidə türk-müsəlman əhalisinə qarşı soyqırım aktları həyata keçirməkdə idi. Qafqaz İslam Ordusu Qarabağ istiqamətində hərəkata başlayan kimi İrəvan hökumətinin göstərişi ilə Tiflis və İstanbuldakı erməni diplomatları hərəkətə keçdilər. Tiflisdəki erməni nümayəndəsi A.Camalyan von Kressə müraciət edib, bu əməliyyata müdaxilə etməsini xahiş etdi. Von Kress sentyabrın 28-də erməni nümayəndəsinə bildirdi ki, hazırkı vəziyyətdə Nuru paşa ilə münasibətlərinin gərginləşməsi ilə əlaqədar olaraq o, bu prosesə müdaxilə edə bilməyəcək [2, v. 44-45].

Bunun ardınca erməni nümayəndəsi oktyabrın 5-də Tiflisdəki Osmanlı nümayəndəsi Əbdülkərim paşa ilə görüşüb İslam Ordusunun Qarabağ istiqamətində hərəkətini dayandırmağı xahiş etdi. Əbdülkərim paşa Ermənistanla Türkiyə, eyni zamanda Azərbaycan arasında olan mübahisəli məsələlərin danışıqlar yolu ilə həll edilməli olduğunu xatırlatdı. Oktyabrın 8-də Əbdülkərim paşanın vasitəçiliyi ilə təşkil edilən Azərbaycan və Ermənistan diplomatik nümayəndələrinin görüşündə M.Y.Cəfərov Azərbaycanın həmişə ermənilərə xoş münasibət göstərdiyini, Batum

konfransının gedişində məhz Azərbaycanın səyləri nəticəsində Ermənistanın müstəqilliyinin təsbit olunduğunu və İrəvan şəhərinin də Qarabağa bir daha ərazi iddiaları sürməyəcəkləri şərtilə ermənilərə verildiyini A.Camalyanın diqqətinə çatdırdı. Lakin erməni nümayəndəsi bu barədə məlumatının olmadığını bildirməklə yanaşı, Ermənistanın Qarabağ məsələsində hansısa güzəştə getməyəcəyini bəyan etdi. M.Y.Cəfərov həmçinin qeyd etdi ki, ermənilər Qarabağla bağlı ərazi iddialarından imtina etdiyi təqdirdə Azərbaycan tərəfi daha bir sıra güzəştlərə gedə bilər [2, v. 46-48]. Azərbaycan tərəfinin məsələnin sülh yolu ilə həll edilməsi üçün belə bir güzəştli mövqe ortaya qoymasına baxmayaraq, erməni tərəfinin inadlı mövqeyi danışıqların nəticəsiz başa çatmasına gətirib çıxardı.

Ermənistan hökuməti həmçinin İrəvandakı Osmanlı təmsilçisi Məmmədəli paşaya müraciət edərək, Türkiyənin Azərbaycan hökumətinin Qarabağ və Zəngəzur istiqamətində hərbi əməliyyat keçirməsinə mane olmasını və İstanbul konfransının qərarlarınadək bu ərazilərdə bitərəf zona təşkil edilməsini xahiş etdi. İrəvandakı Osmanlı təmsilçisi 1918-ci il oktyabrın 8-də Osmanlı hökumətinə göndərdiyi teleqramda erməni hökumətinin bu müraciəti barədə məlumat verdi [6, v. 78, 66;]. Məmmədəli paşa 1918-ci il oktyabrın 10-da İstanbul hökumətinə göndərdiyi növbəti teleqramında bildirirdi ki, ermənilərlə müsəlmanlar arasında dərin bir uçurum mövduddur. İki hökumət bir-birinə dost olsa belə, iki millətin düşmənçilik hissiyyatları asanlıqla aradan qalxmayacaq. Ermənilər "böyük Ermənistan" xəyalı uğrunda mübarizə aparacaqlarsa, müsəlman əhalisi üçün daim problemlər yaratmış olacaqlar. Buna qarşı indidən tədbirli tərpənib Ermənistan sərhədi boyundakı kəndlərdə təşkilati iş aparmaq və müsəlman əhalini silahlandırmaq lazımdır [6, v. 68, 23; 5].

**9.Osmanlı dövlətinin Ermənistanla Azərbaycan arasında olan ərazi-sərhəd problemlərini sülh yolu ilə həll etmək cəhdləri**

Cənubi Qafqaz respublikaları arasında mübahisə doğuran ərazilərdə 1918-ci ilin yayında erməni və gürcülər tərəfindən müsəlman əhalisinə qarşı həyata keçirilən sistemli diskriminasiya siyasətinə baxmayaraq Osmanlı hökuməti bütün vasitələrlə çalışırdı ki, bu mübahisələr danışıqlar vasitəsilə nizamlansın. Osmanlı sədrəzəmi Tələt paşa 1918-ci il oktyabrın 2-də Azərbaycan nümayəndəsi Əlimərdan bəy Topçubaşovu qəbul edərkən bildirdi ki, bizim yalnız bir arzumuz - Rusiya imperiyasının dağılması reallaşmışdır. Bu həm bizim üçün, həm sizin üçün, həm də bütün Qafqaz və Rusiya xalqları üçün yaxşı nəticədir. Bundan səmərəli istifadə etmək üçün azərbaycanlılar, ermənilər və gürcülər öz aralarında olan kiçik ziddiyyətləri və narazılıqları unudub mehriban əlaqələr yaratmalıdırlar. Belə əlaqələrin yaradılmasına məhz indi başlanılmalıdır. Əlbəttə ki, mübahisəli məsələləri həll etmək üçün yeni yaranan dövlətlər sərhəd zolağında olan 5-6 mübahisəli

kəndi bir-birinə güzəştə getməlidirlər [Топчибашев, s.9-10]. Ə.Topçubaşov Azərbaycan hökumətinin yarandığı ilk gündən etibarən qonşu hökumətlərlə mühriban münasibətlər yaratmaq və bütün mübahisəli məsələləri danışıqlar vasitəsilə həll etmək prinsipindən çıxış etdiyini və daim bu prinsipə sadiq qaldığını sədrəzəmin diqqətinə çatdırdıqdan sonra qeyd etdi ki, əgər gürcülərlə sülh yolu ilə keçinmək mümkün olsa da, ermənilərlə bunu etmək çox çətindir. Bizim müsəlmanların bu işdə səmimiliyi çoxdan məlumdur. Ermənilərin isə yalnız indiki hərəkətlərini göstərmək kifayətdir. Nə qədər ölkə varsa, onların bir o qədər də orientasiyası vardır [Топчибашев, s.10-11].

Elə həmin gün Osmanlı xarici işlər naziri Əhməd Nəsimi bəy də Ə.Topçubaşovla keçirdiyi görüşündə sədrəzəmin mövqeyini bir daha təkrar edərək bəyan etdi ki, Qafqaz xalqlarının dinc, yanaşı yaşamalarının əsas şərti onların arasında mövcud olan ərazi-sərhəd mübahisələrinin qarşılıqlı güzəştlər əsasında sülh yolu ilə həll olunmasıdır [Топчибашев, s.13]. Oktyabrın 2-də Ə.Topçubaşovun Türkiyənin ədliyyə naziri Xəlil bəylə keçirdiyi görüşdə də Qafqaz respublikaları arasında ərazi mübahisələri müzakirə mövzusu oldu. Xəlil bəy Batum konfransında Osmanlı heyətinə rəhbərlik etdiyindən Cənubi Qafqaz respublikaları arasındakı qarşılıqlı ərazi iddialarından daha çox məlumatlı idi. O, “mənim fikrim belədir ki, Qafqaz müsəlmanlarına şimalda Don və Kubanla, cənubda isə ermənilərlə dostluqda və ittifaqda olmaq lazımdır” deyə bəyan etdi və Ə.Topçubaşova məsləhət bildi ki, sərhəd mübahisələrində Azərbaycan hökuməti ermənilərlə razılığa gəlməyə cəhd etməlidir [Топчибашев, s.15]. Qafqaz respublikaları arasında ərazi-sərhəd mübahisələrinin nizama salınması ilə bağlı ilk gündən etibarən Azərbaycan hökuməti sülh və danışıqlar tərəfdarı idi, lakin onun bu istiqamətdə göstərdiyi təşəbbüslərə adekvat qarşılıq verilmirdi. Buna baxmayaraq, oktyabrın 2-də Osmanlı hökumət nümayəndələri ilə keçirdiyi görüşlərdən sonra Ə.Topçubaşov elə həmin gün İstanbuldakı erməni nümayəndələri ilə, ertəsi gün də gürcü nümayəndəsi G.Gvazava ilə görüşüb Osmanlı rəsmiləri ilə apardığı müzakirələr barədə məlumat verdi və mübahisəli ərazi məsələlərini sülh yolu ilə həll etmək üçün daha bir təşəbbüs göstərdi. Lakin Azərbaycan tərəfinin bu təşəbbüsü də əvvəlkilər kimi nəticəsiz qaldı. Mübahisələri güc tətbiq etmək yolu ilə həll etməyə çalışan Ermənistan hökuməti artıq müharibənin başa çatmaq üzrə olduğunu görüb, bir tərəfdən müsəlman əhalisinə qarşı terror və soyqırım siyasətini, digər tərəfdən də Türkiyəyə qarşı diplomatik təzyiqlərini gücləndirdi.

1918-ci il oktyabrın 15-də İstanbuldakı erməni nümayəndə heyəti yeni Osmanlı sədrəzəmi Əhməd İzzət paşa ilə görüşdü [25, s.2; 28, s.2]. Heyət işə başlaması münasibətilə Əhməd İzzət paşanı təbrik etməklə yanaşı, sədrəzəmə yazılı bir müraciət də təqdim etdi. Müraciətdə “nəticəsi təəssüf doğuracaq hər hansı bir qarşıdurmadan qaçmaq üçün” Qarabağda heç bir hərbi əməliyyatın

həyata keçirilməməsi haqqında Qafqazdakı Osmanlı ordularına təlimat verilməsi və bu təlimatın teleqramla Azərbaycan və Ermənistan hökumətlərinə də bildirilməsi xahiş edilirdi [10, s.133]. Bu müraciətə cavab olaraq erməni heyətinə təqdim edilməsi üçün sədrəzəm tərəfindən 1918-ci il oktyabrın 19-da Osmanlı Xarici İşlər Nazirliyinə göndərilən sənəddə Qarabağ ərazisinin əsrlərdən bəri Azərbaycanın ərazisi daxilində və hər cəhətdən ona aid olduğunun Azərbaycan hökuməti və nümayəndələri tərəfindən bəyan edildiyi vurğulanır və bu məsələnin birşaba Azərbaycan və erməni hökumətləri arasında həll edilməli olduğu, Türkiyənin isə bu məsələyə qarışmaq istəmədiyi erməni heyətinin diqqətinə çatdırılırdı. Daha sonra Qarabağa qarşı Osmanlı hərbi hissələri tərəfindən hər hansı bir hərbi əməliyyatın həyata keçirilməməsi haqqında Qafqazdakı Osmanlı ordularına da təlimat verildiyi bildirilirdi [10, s.132].

Oktyabrın 19-da erməni heyəti təkrar Osmanlı sədrəzəmi, eyni zamanda maliyyə naziri Cavid bəy və xarici işlər naziri Nəbi bəy tərəfindən qəbul edildi [26, s.3; 27, s.2]. Bu görüşlərdə Ermənistanın sərhədləri, aclıq çəkən erməni əhalisi və qaçqınlar məsələləri əsas müzakirə mövzusu oldu. Erməni heyəti Osmanlı sədrəzəmindən xahiş etdi ki, türk ordusunun Qafqazdan təxliyə edilməsi zamanı Lori, Pəmbək, Axalkələk və Alagöz dağı əraziləri Ermənistan hökuməti tərəfindən işğal edilsin. Maraqlıdır ki, bu görüşlərdə erməni heyəti bir tərəfdən Azərbaycana qarşı irəli sürdüyü ərazi iddialarını əsaslandırmağa çalışır, digər tərəfdən Osmanlı sədrəzəmindən xahiş edirdi ki, o, aclıq çəkən Ermənistan əhalisinə yardım məqsədilə Azərbaycandan 1,5 milyon pud un göndərilməsi üçün Şərq Orduları Qrupunun komandanı Xəlil paşa və Azərbaycan hökuməti nəzdində təşəbbüs göstərsin [10, v. 134-135]. Ermənilərin bu xahişi də Əhməd İzzət paşa tərəfindən qəbul edildi.

Əhməd İzzət paşa Osmanlı Xarici İşlər Nazirliyinə göndərdiyi 1918-ci il 24 oktyabr tarixli müraciətində artıq dünya müharibəsində məğlub olan Türkiyə üçün yeni problemlərin yaranmasına imkan verməmək məqsədilə ermənilərə qarşı hansısa hərbi əməliyyatların, həmçinin Qarabağa doğru hərbi əməliyyatın keçirilməməsi haqqında bir gün əvvəl 9-cu ordu və İslam Ordusu komandanlıqlarına əmr verdiyini diqqətə çatdırır, Azərbaycanla Ermənistan arasında ərazi-sərhəd məsələlərinin xüsusi konfranslar vasitəsiylə siyasi yolla həll edilməli olduğunu bildirirdi [15, v. 1]. Sədrəzəmin müraciətinə uyğun olaraq Osmanlı Xarici İşlər Nazirliyi İstanbuldakı erməni heyətinə rəsmi məktub göndərib bütün bunlar haqqında məlumat verdi [10, v. 2].

Qarabağa qarşı Osmanlı hərbi hissələri tərəfindən hərbi əməliyyatın həyata keçirilməməsi haqqında verilən əmrlə bağlı 9-cu ordu komandanlığından Hərbi Nazirliyə göndərilən cavab teleqramında Qarabağda 9-cu ordunun əsgərinin olmadığı bildirilir və bunun ardınca qeyd edilirdi: “Batum müqaviləsindən bu günə qədər ermənilər İrəvan, Qarabağ və Naxçıvan

bölgələrində, gürcülər də almanlarla birgə Borçalı və Qazax bölgələrində müsəlman əhalisinə qarşı hər cür zülm və cəfalar həyata keçirdilər. Xüsusilə də ermənilər İrəvan və Qarabağ bölgələrindəki bütün müsəlmanları qətl, qarət və yanğına məruz qoyub hicrətə məcbur edərək tamamilə məhv etdilər. Bu günə qədər minlərlə müsəlman ailəsi ehtiyac içində, səfil bir halda hicrət edərək və ya qaçıb gələrək Qars bölgəsinə sığınmağa məcbur oldu. Hicrət edə və ya qaçıb gələ bilməyənlər isə oralarda məhv oldu... Təkcə erməni cani Andranik indiyə qədər yüz minlərlə qan axıtdı, evləri məhv etdi. O, hələ də Qarabağ bölgəsində bu siyasəti davam etdirir. Qarabağa göndərilən Azərbaycan İslam Ordusunun qüvvələri müsəlman əhalisini Andranikdən qoruyur. Bu qüvvənin qarşısında ermənilər və Andranik qaçmağa məcbur olduğundan o bölgədə nisbi sakitlik yaranmışdır" [16]. O da qeyd olunurdu ki, Qarabağdakı vəziyyətlə bağlı əsl həqiqət bundan ibarətdir, əgər ermənilər bunun əksini iddia edirlərsə, o zaman onlar öz siyasi məqsədləri üçün həqiqətləri təhrif edirlər. Sədrəzəm 9-cu ordu komandanlığından aldığı bu teleqramın bir nüsxəsini ermənilərin qaldırdığı iddialara cavab vermək üçün oktyabrın 28-də Osmanlı Xarici İşlər Nazirliyinə göndərdi [16].

Ermənilər Türkiyənin artıq dünya müharibəsində məğlub olmasını görüb digər məsələlərlə yanaşı, Qarabağa olan ərazi iddiaları ilə bağlı da İstanbul və Azərbaycan hökumətlərinə diplomatik təzyiqlərini gücləndirdilər. Eyni zamanda, Qarabağa silah gücünə sahib olmaq istiqamətində səylərini artırdılar. Ermənistandakı Osmanlı nümayəndəsi Məmmədəli paşa İstanbul hökumətinə göndərdiyi 23-24 oktyabr 1918-ci il tarixli şifrəli teleqramında qeyd edirdi ki, Ermənistan Milli Məclisindəki fraksiyalardan Sosialistlər və Kadetlər Qarabağla bağlı məsələnin üçüncü bir dövlətin vasitəsilə sülh yolu ilə həll edilməsini tələb etdiyi halda, hakim Daşnaksütyun fraksiyası müharibə tərəfdarı kimi çıxış edir [14]. Ermənistan Milli Məclisi Azərbaycan silahlı qüvvələrinin Şuşanı öz nəzarətinə alması ilə əlaqədar olaraq oktyabrın 23-də Gəncəyə bir heyət göndərib ərazi-sərhəd məsələləri ilə bağlı Azərbaycan hökuməti ilə müzakirələr aparmaq haqqında qərar qəbul etsə [14] də, İrəvan hökuməti bu qərarı həyata keçirmədi. Türk qoşunlarının Cənubi Qafqazı tərk etməsi ilə Ermənistan hökuməti iddia irəli sürdüyü Qarabağ və digər tarixi Azərbaycan torpaqlarına qarşı silahlı təcavüzü gücləndirdi.

Onu da qeyd edək ki, Ermənistan hökumətinin müsəlmanlara qarşı həyata keçirdiyi qırğın və diskriminasiya siyasətinə baxmayaraq, bəzi türk siyasiləri dövrün şərtləri daxilində daşnaklarla əməkdaşlıq etməyi Osmanlı imperiyasının mənafelərinə uyğun hesab edirdilər. Çünki öz planlarını əsasən Türkiyə erməniləri üzərində quran Hnçaq partiyası ilə müqayisədə Daşnaksütyunla əməkdaşlıq etmək və onu Hnçaqa qarşı qoymaq daha məqsədəuyğun hesab edilirdi. Hnçaqın mövqeyinə görə, Daşnaksütyun partiyasının Ermənistan Respublikasını elan etməsi və Osmanlı imperiyası ilə

əməkdaşlıq yolunu tutması ilə Türkiyə ermənilərinin amalına böyük zərbə endirmiş oldu. Daşnaksütyun və Hnçaq partiyalarının Osmanlı imperiyasına münasibəti və onlarla əməkdaşlığın perspektivləri ilə bağlı hazırlanan bir raportda qeyd edilirdi ki, Türkiyə maraqlarına uyğun gələn Daşnaksütyun partiyasının siyasətidir. Lakin hazırda Qarabağla bağlı Azərbaycanla Ermənistan arasında olan münaqişə daşnaklarla əməkdaşlığa mane olur [17, v. 20-23].

**10.Nəticə**

Beləliklə bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, 1918-ci ilin mayında Cənubi Qafqaz Seyminin süqutundan sonra bölgədə yaranan Gürcüstan, Azərbaycan və Ermənistan respublikaları arasında çox ciddi ərazi-sərhəd problemləri ortaya çıxdı. XIX əsrin əvvəllərindən başlayaraq Rusiya imperiyası tərəfindən İran və Türkiyədən Cənubi Qafqaza köçürülən ermənilər Azərbaycanın şimalı ilə cənubu arasında, həmçinin Osmanlı imperiyası ilə sərhəd zolağındakı tarixi Azərbaycan torpaqlarında yerləşdirilmiş və müsəlman əhalisinə qarşı mərkəzi hökumət tərəfindən dəstəklənmiş, həmçinin müsəlman əhalisinə qarşı irqi, milli və dini zəmində həyata keçirilən diskriminasiya siyasəti nəticəsində ermənilər üçün ərazi bazaları yaradılmağa cəhd edilmişdi. Rusiyanın XIX əsrin əvvəllərindən başlayaraq həyata keçirdiyi inzibati islahatları Cənubi Qafqazı gürcü, müsəlman və ermənilər arasında bərabər şəkildə bölməyə hesablanmışdı. Bu siyasət Azərbaycan torpaqlarının bir neçə mərkəzdən idarə olunmasına gətirib çıxardı ki, bu da öz növbəsində gürcü və ermənilərin Azərbaycana qarşı ərazi iddiaları üçün zəmin hazırladı. Məhz bu siyasətin nəticəsi idi ki, Cənubi Qafqaz idarəçiliyinin süqutundan sonra bölgədə yaranan Gürcüstan, Azərbaycan və Ermənistan respublikaları arasında ilk gündən başlayaraq bir-birinə qarşı ərazi iddiaları və torpaq mübahisələri baş qaldırdı və respublikaların süqutuna qədər bu mübahisələr nəinki səngimədi, əksinə daha kəskin xarakter aldı.

M.Ə.Rəsulzadənin ifadəsi ilə desək, müstəqilliyin elanından sonra Azərbaycan, həmsərhəd olduğu beş ölkədən dost və eyni dinə sahib olan üç ölkə - Türkiyə, İran və Şimali Qafqaz - ilə ərazi-sərhəd məsələlərini danışıqlar yolu ilə həll edib, mehriban qonşuluq münasibətləri qurmaqda çətinlik çəkmədi, lakin Gürcüstan və xüsusilə də Ermənistan ilə bunu etmək mümkün olmadı [Azerbaycan ve Komşuları, s.3].

Ermənistanla Azərbaycan arasında ərazi-sərhəd mübahisələri İrəvan, Sürməli, Şərur, Dərələyəz, Naxçıvan, Ordubad, Qazax, Şuşa-Cavanşir (Qarabağ), Zəngəzur və Borçalı əraziləri üstündə idi. Batum razılaşmalarına görə İrəvan mərkəz olmaqla Azərbaycan torpaqlarında yaradılan Ermənistan dövləti bunun müqabilində Azərbaycan və Osmanlı imperiyası qarşısında üzərinə götürdüyü öhdəliklərin heç birinə əməl etməməklə yanaşı,

Azərbaycana qarşı yeni-yeni ərazi iddiaları irəli sürdü. Ermənistan təkcə Azərbycan qarşı deyil, ərazi sərhədinə malik olduğu hər üç dövlətə qarşı torpaq iddiaları ilə çıxış edirdi. Batum müqaviləsinə görə cəmi 9000 $km^2$ əraziyə sahib olan erməni dövlətinin qonşularına qarşı qaldırdığı ərazi iddialarına görə, Ermənistanın ərazisi 52500 $km^2$-ə çatdırılmalı idi. Qonşu ölkələrə qarşı irəli sürülən 43500 $km^2$-lik erməni ərazi tələblərinin 40000 $km^2$-i məhz tarixi Azərbaycan torpaqlarına qarşı yönəlmişdi. Ermənilərin Azərbaycan torpaqlarına qarşı yönələn ərazi tələblərinin ümumi sahəsi Ermənistanın öz ərazisindən 4,5 dəfə çox idi.

Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiaları haqlı olmayıb, tarixi Azərbaycan torpaqlarına qarşı yönəlmişdi. Buna baxmayaraq, Azərbaycan tərəfi qonşuları ilə olan ərazi-sərhəd mübahisələrini danışıqlar masası ətrafında qarşılıqlı güzəştlər əsasında həll etməyə üstünlük verirdi. Həmçinin Osmanlı hökuməti də 1918-ci ilin yayında Cənubi Qafqazda faktiki olaraq malik olduğu hərbi-siyasi üstünlüyünə baxmayaraq, Qafqaz respublikaları arasında mübahisəli ərazi-sərhəd problemlərinin danışıqlar yolu ilə həll edilməsini üstün tutur və hərbi güc tətbiq edilməsinin əleyhinə çıxırdı. Ermənistan tərəfi isə, hərbi güc tətbiq edilməsi yolu ilə mübahisəli ərazi problemlərini həll etməyə çalışırdı. Çünki mübahisəli bölgələrin etnik mənzərəsi Azərbaycanın xeyrinə idi, eyni zamanda, ermənilərin öz ərazi iddialarını əsaslandırmaq üçün istinad etdiyi arqumentlər də ciddi əhəmiyyət daşımırdı. Yarandığı ilk gündən başlayaraq ərazi sərhədinə malik olduğu hər üç dövlətə qarşı ərazi iddiaları ilə çıxış edən Ermənistanın yürütdüyü öz sərhədlərini qonşu dövlətlər hesabına genişləndimək siyasəti və bu məqsədlə həyata keçirdiyi təcavüzkarlıq aktları Birinci dünya müharibəsinin başa çatmasından sonrakı dövrdə də Cənubi Qafqaz respublikaları arasında birlik və sıx əməkdaşlıq qurmaq yolunda əsas maneə olaraq qaldı və bölgənin potensial xarici təhlükələrə qarşı səfərbər olunmasına imkan vermədi.

## ƏDƏBİYYAT

**1.** Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 894, siy. 10, iş 31.
**2.** Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi (ARPİİİSSA), f. 276, siy. 9, iş 1.
**3.** ARPİİİSSA, f. 276, siy. 9, iş 17.
**4.** ARPİİİSSA, f. 277, siy. 2, iş 7.
**5.** Türkiyə Cümhuriyeti Başbakanlık Osmanlı Arşivi (BOA), A.VRK, no. 821/65.
**6.** BOA, HR.SYS, no. 2293/8.
**7.** BOA, HR.SYS, no. 2303/4.
**8.** BOA, HR.SYS, no. 2303/7.
**9.** BOA, HR.SYS, no. 2372/1.
**10.** BOA, HR.SYS, no. 2372/2.
**11.** BOA, HR.SYS, no. 2372/3.

**12.** BOA, HR.SYS, no. 2398/5.
**13.** BOA, HR.SYS, no. 2399/1.
**14.** BOA, HR.SYS, no. 2460/26.
**15.** BOA, HR.SYS, no. 2460/28.
**16.** BOA, HR.SYS, no. 2460/57.
**17.** BOA, HR.SYS, no. 2634/9.
**18.** Aldığımız Cevablar. *Haftalık Gazete, no. 8* (15 Ağustos 1334), s. 1-4.
**19.** Azerbaycan Cumhuriyeti Milli Meclisi Reisi Resulzade Mehmed Emin Bey'in Muharririmize Beyanatı. *Vakit, no. 248* (26 Haziran 1334), s. 1.
**20.** Azerbaycan ve Komşuları: Azerbaycan Murahhaslarının Beyanatı. *Tanin, no. 3495* (3 Eylül 1334), s. 3.
**21.** Azerbaycan-Ermenistan Hudud Meselesi. *Haftalık Gazete, no. 2* (4 Temmuz 1334), s. 6-7.
**22.** Azerbaycan-Ermenistan Hudud Meselesi. *Haftalık Gazete, no. 3* (11 Temmuz 1334), s. 6-7.
**23.** Ermeni Heyet-i Murahhasa Müşavirinin Cevabı. *Haftalık Gazete, no. 10* (29 Ağustos 1334), s. 2-4.
**24.** Ermeni Heyet-i Murahhasası Reisi'nin Beyanatı. *Sabah, no. 10280* (28 Haziran 1334), s. 1.
**25.** Ermeni Murahhaslarının Ziyareti. *Yeni Gün, no. 44* (18 Teşrinievvel 1334), s. 2.
**26.** Ermeni Heyet-i Murahhasası'nın Ziyaretleri. *Ati, no. 283* (20 Teşrinievvel 1334), s. 3.
**27.** Ermeni Heyet-i Murahhasası'nın Ziyaretleri. *Sabah, no. 10388* (20 Teşrinievvel 1334), s. 2.
**28.** Ermeni Heyet-i Murahhasası'nın Ziyaret ve Tebrikatı. *Zaman, no. 192* (18 Teşrinievvel 1334), s. 2.
**29.** Kafkasya Ermeni Cumhuriyeti ve Türkiye Ermenileri. *İkdam, no. 7685* (1 Temmuz 1334), s. 2.
**30.** Gürcistan Heyet-i Murahhasası. *Tanin, no. 3498* (6 Eylül 1334), s. 2.
**31.** Gürcü Murahhasları. *Zaman, no. 153* (6 Eylül 1334), s. 3.
**32.** Hatisyan Gregor. Mühim Bir Cevab: Ermeni Cumhuriyeti Ne İstiyor? *Haftalık Gazete, no. 6* (1 Ağustos 1334), s. 4-6.
**33.** İstanbul Konferansı. *Sabah, no. 10345* (4 Eylül 1334), s. 2.
**34.** İstanbul Konferansı. *Sabah, no. 10364* (26 Eylül 1334), s. 2.
**35.** Kafkas Heyet-i Murahhasaları. *Sabah, no. 10348* (7 Eylül 1334), s. 2.
**36.** Kafkasya Heyet-i Murahhasaları. *Tanin, no. 3524* (5 Teşrinievvel 1334), s. 3.
**37.** Kafkasya Heyet-i Murahhasası. *Sabah, no. 10373* (5 Teşrinievvel 1334), s. 2.
**38.** Kafkasya Hükumat-ı Müttehidesi Tasavvuru. *Ati, no. 259* (26 Eylül 1334), s. 1.
**39.** Kafkasya İttihadı. *Haftalık Gazete, no. 15* (3 Teşrinievvel 1334), s. 11.
**40.** Kafkasya Meselesinin En İyi Halli. *Tanin, no. 3515* (26 Eylül 1334), s. 2.
**41.** Kafkasya'da Müteşekkil Dört Hükümet Murahhasları İstanbul'da. *İkdam, no. 7680* (26 Haziran 1334), s. 1.
**42.** *Кавказский календарь на 1917 год*. Тифлис, 1916.
**43.** Qafarov V.V. (2022). Azərbaycan Cümhuriyyətinin tarixi-siyasi coğrafiyası (1918-1920). *Azərbaycan tarixşünaslığı, № 2* (83), s. 72-95.

**44.** Qafarov V.V. (2019). Batum konfransında Ermənistanın təşəkkülü və İrəvanın ermənilərə verilməsi məsələsi (11 may - 4 iyun 1918). *Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, № 1,* s. 66-91.
**45.** Топчибашев А.А. (1994). *Дипломатические беседы в Стамбуле (записи чрезвычайного посланника и полномочного министра Азербайджанской Республики).* 1918-1919 гг. Баку: "Эргюн", 160 с.

# Территориальные Претензии Армении к Азербайджану и Карабахский Вопрос в Региональных Политических Процессах (июнь-октябрь 1918 года)

**Васиф Гафаров***

**Абстракт.** В статье исследованы территориальные претензии выдвинутые Арменией к Азербайджану после образования независимых государств в Южном Кавказе и дипломатическая борьба сторон по этому вопросу. На основе архивных материалов Азербайджана и Турции, и материалов Стамбульской прессы 1918 года освещены детали переговоров между Азербайджанской и Армянской делегациями в Стамбульской конференции, а также дипломатическими представителями обеих стран в Тбилиси по территориальным претензиям Армении. Определены масштабы территориальных претензий Армении и аргументы, на которые ссылаются армяне. А также интерпретированы обратные аргументы Азербайджанской стороны против этих утверждений. Архивные материалы, ноты и заявления сторон связанные с данным вопросом впервые вовлечены к научному исследованию.

Был сделан вывод, что общая территория Армении, независимость которой была провозглашена 30 мая 1918 года, составляла всего 9000 км2. Эта территория также была передана Армении при ряде условий. После провозглашения независимости Армения предъявила территориальные претензии всем государствам, с которыми она имеет территориальную границу. Общий объем территориальных претензий Армении составляет 43500 км2, из них 17600 км2 направлено против Турции, 16500 км2 - против Азербайджана, 9400 км2 - против Грузии.

* Доктор исторических наук, доцент,
Главный научный сотрудник Института Истории имени А.А.Бакиханова, НАНА; Баку, Азербайджан
E-mail: vasifgafarov@gmail.com
https://orcid.org/0000-0002-9232-6328

**Цитировать статью:** Гафаров, В. [2024]. Территориальные Претензии Армении к Азербайджану и Карабахский Вопрос в Региональных Политических Процессах (июнь-октябрь 1918 года). *Журнал «Metafizika», 7(1),* с.10-40.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i1.10-40

**История статьи:**
*Статья поступила в редакцию: 30.10.2023*
*Отправлена на доработку: 04.12.2023*
*Принята для печати: 29.01.2024*

Армения ссылалась на расово-национальные принципы, Азербайджан на этнорелигиозные и географические принципы, а Грузия на исторические принципы решения спорных территориально-пограничных вопросов между республиками Южного Кавказа. Позиция и поведение Армении не позволили решить спорные территориальные и пограничные вопросы между республиками Южного Кавказа.

**Ключевые слова:** Территориальные претензии, Территориально-пограничные проблемы, Карабахская проблема, Батумская конференция, Стамбульская конференция, территория Азербайджана, территория Армении

## Territorial Claims of Armenia Against Azerbaijan and Karabagh Issue in Regional Political Processes (June-October, 1918)

**Vasif Gafarov***

**Abstract.** This article deals with the territorial claims of Armenia against Azerbaijan and the diplomatic struggle among related parties after the establishment of independent states in the South Caucasus. Azerbaijani and Armenian delegations at the Istanbul conference on Armenia's territorial claims, and at the same time, details of the negotiations between the diplomatic representatives of the two countries in Tbilisi have been illustrated according to the documents of the archives of Azerbaijan and Turkey and materials from the Istanbul press in 1918. The scale of the territorial claims of Armenia and the arguments referenced by Armenians have been identified. Also, contrary arguments made by the Azerbaijani side against these allegations have been interpreted. Archival documents, notes, and statements of the parties presented on the problem were brought into scientific circulation for the first time.

It was concluded that the total territory of Armenia, whose independence was declared on May 30, 1918, was only 9000 km2. This territory was also given to Armenia under a number of conditions. After the declaration of independence, Armenia made territorial claims against all states with which it has a territorial border. The total volume of Armenia's territorial claims is 43500 km2, of which 17600 km2 is directed against Turkey, 16500 km2

---

* Doctor of historical sciences, associate professor,
Senior researcher of the Institute of History named after A.A.Bakikhanov, ANAS; Baku, Azerbaijan
E-mail: vasifgafarov@gmail.com
https://orcid.org/0000-0002-9232-6328

**To cite this article:** Gafarov, V. [2024]. Territorial Claims of Armenia Against Azerbaijan and Karabagh Issue in Regional Political Processes (June-October, 1918). *"Metafizika" journal, 7(1),* pp.10-40.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i1.10-40

**Article history:**
*Received: 30.10.2023*
*Accepted: 29.01.2024*

against Azerbaijan, and 9400 km2 against Georgia. Armenia referred to racial-national principles, Azerbaijan to ethnic-religious and geographical principles, and Georgia to historical principles to resolve disputed border issues between South Caucasus republics. The position and behavior of Armenia did not allow to resolve the disputed territorial and border between the South Caucasus republics.

**Keywords:** territorial claims, territorial-border issues, Karabakh issue, Batumi Conference, Istanbul Conference, Azerbaijani territory, Armenian territory

## REFERENCES

**1.** *State Archive of the Republic of Azerbaijan* (ARDA), f. 894, siy. 10, work 31.
**2.** *Public-Political Documents Archive of the Affairs Department of the President of the Republic of Azerbaijan* (ARPIIISSA), f. 276, siy. 9, work 1.
**3.** *ARPIIISSA*, f. 276, siy. 9, case 17.
**4.** *ARPIIISSA*, f. 277, siy. 2, work 7.
**5.** *Republic of Turkey Prime Minister's Ottoman Archive* (BOA), A.VRK, no. 821/65.
**6.** BOA, HR.SYS, no. 2293/8.
**7.** BOA, HR.SYS, no. 2303/4.
**8.** BOA, HR.SYS, no. 2303/7.
**9.** BOA, HR.SYS, no. 2372/1.
**10.** BOA, HR.SYS, no. 2372/2.
**11.** BOA, HR.SYS, no. 2372/3.
**12.** BOA, HR.SYS, no. 2398/5.
**13.** BOA, HR.SYS, no. 2399/1.
**14.** BOA, HR.SYS, no. 2460/26.
**15.** BOA, HR.SYS, no. 2460/28.
**16.** BOA, HR.SYS, no. 2460/57.
**17.** BOA, HR.SYS, no. 2634/9.
**18.** The Answers We Received. *Haftalik Newspaper, no. 8* (August 15, 1334), p. 1-4.
**19.** Statement of Resulzade Mehmed Emin Bey, President of the National Assembly of Azerbaijan Republic, to our Muharrir. *Vakit, no. 248* (26 June 1334), p. 1.
**20.** Azerbaijan and its Neighbors: Statement of the Governors of Azerbaijan. *Tanin, no. 3495* (September 3, 1334), p. 3.
**21.** Azerbaijan-Armenia Territory Issue. *Haftalik Newspaper, no. 2* (July 4, 1334), p. 6-7.
**22.** Azerbaijan-Armenia Territory Issue. *Haftalik Newspaper, no. 3* (July 11, 1334), p. 6-7.
**23.** Answer of the Advisor of the Armenian Delegation. *Haftalik Newspaper, no. 10* (29 August 1334), p. 2-4.
**24.** Statement of the Head of the Armenian Delegation. *Sabah, no. 10280* (28 June 1334), p. 1.

**25.** Visit of Armenian dignitaries. *Yeni Gün, no. 44* (18 Teshrinievvel 1334), p. 2.
**26.** Visits of the Armenian Delegation. *Ati, no. 283* (20 Teshrinievvel 1334), p. 3.
**27.** Visits of the Armenian Delegation. *Sabah, no. 10388* (20 Teshrinievvel 1334), p. 2.
**28.** Visit and Congratulations of the Armenian Delegation. *Zaman, no. 192* (18 Teshrinievvel 1334), p. 2.
**29.** Caucasian Armenian Republic and Turkish Armenians. *Ikdam, no. 7685* (1 July 1334), p. 2.
**30.** Executive Committee of the Georgian Delegation. *Tanin, no. 3498* (September 6, 1334), p. 2.
**31.** Georgian Murahhaslari. *Zaman, no. 153* (September 6, 1334), p. 3.
**32.** Hatisyan Gregor. An Important Answer: What Does the Armenian Republic Want? *Weekly Gazette, no. 6* (1 August 1334), p. 4-6.
**33.** Istanbul Conference. *Sabah, no. 10345* (September 4, 1334), p. 2.
**34.** Istanbul Conference. *Sabah, no. 10364* (September 26, 1334), p. 2.
**35.** Caucasus Delegation. *Sabah, no. 10348* (September 7, 1334), p. 2.
**36.** Kafkasya Heyet-i Murahhasalari. *Tanin, no. 3524* (5 Teshrinievvel 1334), p. 3.
**37.** Kafkasia Heyet-i Murahhasası. *Sabah, no. 10373* (5 Teshrinievvel 1334), p. 2.
**38.** Reflection of the Caucasus Government. *Ati, no. 259* (September 26, 1334), p. 1.
**39.** Caucasus Union. *Haftalık Gazete, no. 15* (3 Teshrinievvel 1334), p. 11.
**40.** The Best Situation of the Caucasus Problem. *Tanin, no. 3515* (September 26, 1334), p. 2.
**41.** The Four Governments of the Caucasus in Istanbul. *Ikdam, no. 7680* (26 June 1334), p. 1.
**42.** *Caucasian calendar for 1917.* Tiflis, 1916.
**43.** Gafarov, V. V. (2022). Historical-political geography of the Republic of Azerbaijan (1918-1920). *Azerbaijan historiography, No. 2* (83), p. 72-95.
**44.** Gafarov, V. V. (2019). The question of the creation of Armenia and the transfer of Yerevan to the Armenians at the Batumi conference (May 11 - June 4, 1918). *News of Baku University, Humanities series, No. 1,* p. 66-91.
**45.** Topchibashev, A. A. (1994). *Diplomatic talks in Istanbul (records of the extraordinary ambassador and plenipotentiary minister of the Republic of Azerbaijan).* 1918-1919 Baku: "Ergun", 160 c.